# TAM ORTA (11 İLLİK) TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ 2 MART 2025-Cİ İL TARİXİNDƏ KEÇİRİLƏN BURAXILIŞ İMTAHANINDA İSTİFADƏ EDİLƏN TAPŞIRIQLARIN İZAHI

## English

***Listen to the passage and answer questions 1 – 6.***

Anna Julia Cooper was a writer, a teacher and an activist who defended education for African Americans and women. She was the daughter of a black slave woman. Despite the poverty, Anna managed to get education. Anna got her college degree after her husband died. Later she had master's degree in mathematics. During the 1890s Cooper became involved in the black women's club movement. The members of the club were educated middle-class women. They believed that it was their duty to help African American women who needed help. During this time Anna became a popular public speaker. She published her first book "A Voice from the South" to call for equal education for women. Anna considered that educated African American women were necessary for inspiring black race. Her book gained national attention and Cooper began lecturing across the country. Her lectures were mainly focused on the topics such as education, civil rights and the status of black women. Her book is considered first written source of Black feminism. Anna Cooper is often titled as "the Mother of Black Feminism".

**A variantı 1 saylı test tapşırığı**
**B variantı 1 saylı test tapşırığı**
**C variantı 1 saylı test tapşırığı**
**D variantı 1 saylı test tapşırığı**

Which statement is true according to the passage?

A) Anna's lectures were about mathematics.
B) Cooper had got her college degree before her husband died.
C) Anna Cooper was born into a rich family.
D) Anna had master's degree in arts and literature.
E) Cooper was both a writer and a teacher.

**Alt-standart:** 10-1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir və mətnə əsasən düzgün fikri seçmək tələb olunur. Verilən fikirlərdən* ***"Anna's lectures were about mathematics."*** *fikri doğru deyil, çünki Annanın mühazirələri riyaziyyat haqqında deyildi;* ***"Cooper had got her college degree before her husband died."*** *doğru deyil, çünki Kuper kollec təhsilini həyat yoldaşı ölməzdən əvvəl yox, sonra almışdı.* ***"Anna Cooper was born into a rich family."*** *fikri də doğru deyildir, çünki Anna Kuper varlı ailədə yox, kasıb bir qul ailəsində anadan olmuşdu (dünyaya gəlmişdi);* ***"Anna had master's degree in arts and literature."*** *fikri də doğru deyil, çünki Anna magistr dərəcəsini incəsənət və ədəbiyyat üzrə deyil, riyaziyyat üzrə almışdı.* ***"Cooper was both a writer and a teacher."*** *fikri isə* ***doğru cavabdır,*** *çünki mətnə əsasən* ***Anna Kuper həm yazıçı, həm də müəllim*** *idi.*

**A variantı 2 saylı test tapşırığı**
**B variantı 3 saylı test tapşırığı**
**C variantı 2 saylı test tapşırığı**
**D variantı 3 saylı test tapşırığı**

The passage is mainly about … .

A) popular public speakers
B) the book "A Voice from the South"
C) the struggle against poverty
D) the black activist woman
E) the black women's club movement

**Alt-standart:** 7-1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyən edir.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada mətndə əsasən nədən bəhs olunduğu soruşulur. Burada verilmiş* ***"the struggle against poverty"***, ***"popular public speakers"***, ***"the book "A Voice from the South""*** *və* ***"the black women's club movement"*** *fikirləri barədə mətndə məlumat verilsə də, mətn* ***"qaradərili aktivist qadın"*** *haqqındadır. Bu səbəbdən də, test tapşırığının* ***doğru cavabı "the black activist woman"*** *olan bənddir.*

**A variantı 3 saylı test tapşırığı**
**B variantı 2 saylı test tapşırığı**
**C variantı 3 saylı test tapşırığı**
**D variantı 2 saylı test tapşırığı**

Complete the sentence according to the passage.

*Anna published her book "A Voice from the South" … .*

A) to describe her own life and activity
B) to describe the lifestyle of black women
C) to show poverty of African Americans
D) to call for equal education for women
E) to call for the solution of environmental problems

**Alt-standart:** 10-1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.

**İzah***:* *Bu test tapşırığı dinləmə mətninə aiddir. Mətnə əsasən cümləni düzgün tamamlamaq tələb olunur. Verilmiş yarımçıq cümlə mətndə* ***"She published her first book "A voice from the South" to call for equal education for women." (O özünün "Cənubdan səs" adlı ilk kitabını qadınlar üçün bərabər təhsilə çağırış etmək məqsədilə çap etdirdi.)*** *kimi olduğu üçün verilmiş fikirlərdən yalnız "****to call for equal education for women****" bəndi cümləni tamamlayır. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *"to call for equal education for women" olan bənddir.*

***Fulfil the tasks number 4 – 6 in the "Answer sheets".***

**A variantı 4 saylı test tapşırığı**
**B variantı 4 saylı test tapşırığı**
**C variantı 4 saylı test tapşırığı**
**D variantı 4 saylı test tapşırığı**

Write the correct answer to the question according to the passage.

*Who were the members of the black women's club?*

**Alt-standart:** 6-1.1.1. Müraciətlər zamanı sualları cavablandırır.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş suala mətnə əsasən cavab yazmaq tələb olunur. Verilmiş sualın doğru cavabı* ***"The members of the club were educated middle-class women."(Klub üzvləri təhsilli orta sinif qadınları idi.)*** *cümləsində verilmişdir. Test tapşırığının* ***doğru cavabı "educated middle-class women"*** *fikrinin qeyd olunduğu bənddir.*

**A variantı 5 saylı test tapşırığı**
**B variantı 5 saylı test tapşırığı**
**C variantı 5 saylı test tapşırığı**
**D variantı 5 saylı test tapşırığı**

Complete the sentence according to the passage.

*Despite the poverty, Anna … .*

**Alt-standart:** 7-1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş cümləni dinləmə mətninə əsasən tamamlamaq tələb olunur. Bu yarımçıq cümlə mətndə* ***"Despite the poverty, Anna managed to get education." (Kasıblığa baxmayaraq, Anna təhsil ala bildi.)*** *kimi verilmişdir. Buna görə də, test tapşırığının* ***doğru cavabı "managed to get education"*** *olan bənddir.*

**A variantı 6 saylı test tapşırığı**
**B variantı 6 saylı test tapşırığı**
**C variantı 6 saylı test tapşırığı**
**D variantı 6 saylı test tapşırığı**

Write one adjective from the passage that describes the word "*attention*".

**Alt-standart:** 7-1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş* ***"attention"*** *ismini təsvir edən sifəti yazmaq tələb olunur. Mətndə verilmiş "Her book gained* ***national*** *attention and Cooper began lecturing across the country" cümləsinə əsasən, test tapşırığının* ***doğru cavabı*** *"****national****" sifətidir.*

**A variantı 7 saylı test tapşırığı**
**B variantı 8 saylı test tapşırığı**
**C variantı 11 saylı test tapşırığı**
**D variantı 17 saylı test tapşırığı**

Choose the pair of nouns in the singular.

A) balls, island
B) window, glasses
C) meal, flower
D) umbrella, monkeys
E) tools, gift

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** İsim

**İzah:** *Bu test tapşırığında təkdə verilmiş isimlərin olduğu bəndi seçmək tələb olunur.* ***"Window, glasses, balls, island, umbrella, monkeys, tools, gift"*** *sözlərinin olduğu bəndlərdə müvafiq olaraq* ***"glasses", "balls", "monkeys", "tools"*** *isimləri cəmdə olduğu üçün həmin sözlərin qeyd olunduğu bəndlər doğru cavab deyil. Yalnız* ***"meal, flower"*** *bəndindəki isimlər təkdədir. Ona görə də test tapşırığının* ***doğru cavabı "meal, flower"*** *isimlərinin qeyd olunduğu bənddir.*

**A variantı 8 saylı test tapşırığı**
**B variantı 16 saylı test tapşırığı**
**C variantı 19 saylı test tapşırığı**
**D variantı 9 saylı test tapşırığı**

Choose the correct modal verbs.

*The kids … get up early. They have no lessons today.*

1. don't have to
2. ought to
3. have
4. shouldn't
5. must

A) 1, 4
B) 1, 2, 3
C) 4, 5
D) 3, 4, 5
E) 2, 3

**Alt-standart:** 6- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir.

**Bölmə:** Feil. Modal feillər

**İzah:** *Bu test tapşırığında verilmiş cümləni müvafiq modal feil ilə tamamlamaq tələb olunur. Bəndlərdə verilən* ***"have"*** *modal feil kimi özündən sonra "****to****" hissəcikli məsdər tələb etdiyinə görə doğru cavab ola bilməz,* ***"should"*** *və* ***"must"*** *modal feilləri cümləni məntiqi cəhətdən düzgün tamamlamadığı üçün səhvdir."****Don't have to"*** *və* ***"shouldn't"*** *modal feilləri həm qrammatik, həm də məntiqi cəhətdən uyğun gəldiyi üçün test tapşırığının* ***doğru cavabıdır****.*

**A variantı 9 saylı test tapşırığı**
**B variantı 22 saylı test tapşırığı**
**C variantı 21 saylı test tapşırığı**
**D variantı 14 saylı test tapşırığı**

Choose the correct Passive Voice version of the sentence.

*When did they take the entrance exams?*

A) When were the entrance exams taken?
B) When were the entrance exams been taken?
C) When were they taken the entrance exams?
D) When were taken the entrance exams?
E) When the entrance exams were taken?

**Alt-standart:** 9-4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır.

**Bölmə:** Məchul növ

**İzah:** *Bu test tapşırığında verilmiş xüsusi sual cümləsinin məchul növdə düzgün bəndini tapmaq tələb olunur. Xüsusi sual cümləsində (zərfliyin sualı) söz sırası belə olmalıdır: sual sözü+köməkçi feil+mübtəda+əsas feil … . Məlum növdə olan cümlə keçmiş sadə zamanda olduğu üçün* ***"When were the entrance exams taken?"****cümləsinin qeyd olunduğu bənd* ***doğru cavabdır****.*

**A variantı 10 saylı test tapşırığı**
**B variantı 13 saylı test tapşırığı**
**C variantı 10 saylı test tapşırığı**
**D variantı 22 saylı test tapşırığı**

Choose the correct option.

*The children painted the fence … .*

A) yourself B) themselves C) myself
D) himself E) herself

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Əvəzlik

**İzah:** *Bu test tapşırığında verilmiş cümlədə boşluğu müvafiq əvəzliklə tamamlamaq tələb olunur. Verilmiş cümlədə əsasən cümlənin mübtədasının cəmdə* ***"children"*** *olmasına diqqət etmək lazımdır.* ***"Yourself", "myself", "himself"*** *və* ***"herself"*** *əvəzlikləri təkdə olduğu üçün səhv cavablardır. Mübtədaya* ***(children)*** *uyğun olan qayıdış əvəzliyi "****themselves****" olduğu üçün,* ***doğru cavab*** *"****themselves"*** *olan bənddir.*

**A variantı 11 saylı test tapşırığı**
**B variantı 11 saylı test tapşırığı**
**C variantı 12 saylı test tapşırığı**
**D variantı 8 saylı test tapşırığı**

Choose the correct exclamatory sentences.

1. What a clever dog it is!
2. What clever dogs are they!
3. How the clever dog it is!
4. How clever the dogs are!
5. How dogs the clever they are!

A) 2, 5 B) 3, 4 C) 2, 3 D) 1, 4 E) 1, 5

**Alt-standart:** 9-4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır.

**Bölmə:** Nida cümlələri

**İzah:** *Bu test tapşırığında doğru nida cümlələrini seçmək tələb olunur. Bildiyimiz kimi,* ***"what"*** *sözü ilə başlayan nida cümlələrində söz sırası belə olur:* ***"what + (a, an) + sifət + isim + mübtəda + xəbər." "How"*** *ilə başlayan nida cümlələrində isə söz sırası:* ***"How + sifət (və ya zərf) + (the) mübtəda + xəbər"*** *şəklində olur. Odur ki,* ***"2. What clever dogs are they!", "3. How the clever dog it is!", "5. How dogs the clever they are!"*** *cümlələrinin qeyd olunduğu bəndlər səhv cavablardır. Çünki bu nida cümlələrində söz sırası doğru deyil. Beləliklə, verilmiş cümlələrdən* ***"1. What a clever dog it is! 4. How clever the dogs are!"*** *cümlələrinin qeyd olunduğu bənd* ***doğru cavabdır.***

**A variantı 12 saylı test tapşırığı**
**B variantı 15 saylı test tapşırığı**
**C variantı 14 saylı test tapşırığı**
**D variantı 11 saylı test tapşırığı**

Choose the correct option.

*… Mount Fuji located on … island of Honshū,*
*is … highest mountain in Japan.*

A) The, the, – B) –, the, the C) The, the, the
D) –, the, – E) –, –, –

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Artikl

**İzah:** *Bu test tapşırığında verilmiş cümləni müvafiq artikllarla tamamlamaq tələb olunur. Verilmiş cümlədə "****Mount Fuji****" zirvə adı olduğu üçün onun qarşısında artikl işlənmir. Artiklın işlənmə qaydasına görə* ***ümumi isim + of + xüsusi isim birləşmələri*** *həmişə "the" müəyyənlik artiklı ilə işlənir. Odur ki,* ***"the Island of Honshū"*** *ifadəsində* ***"the"*** *müəyyənlik artiklı işlənməlidir. Həmçinin üstünlük dərəcəsində sifətlə təyin olunan isim müəyyən artiklla işlənir* ***("the highest mountain").*** *Buna görə də, test tapşırığının* ***doğru cavabı "-, the, the"*** *artikllarının verildiyi bənddir.*

**A variantı 13 saylı test tapşırığı**
**B variantı 14 saylı test tapşırığı**
**C variantı 8 saylı test tapşırığı**
**D variantı 7 saylı test tapşırığı**

Choose the correct tense form.

*The invited guests … two hours ago.*

A) has arrived B) arrived C) arrive
D) is arriving E) will arrive

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Feilin zaman formaları

**İzah:** *Bu test tapşırığında feilin düzgün zaman formasını müəyyən etmək tələb olunur. Burada verilmiş sadə cümlənin sonunda "****two hours ago****" zaman zərfliyi keçmiş sadə zaman tələb etdiyi üçün* ***"has arrived", "arrive", "is arriving"*** *və* ***"will arrive"*** *cavabları yanlışdır. Keçmiş sadə zamanda olan* ***"arrived"*** *feilinin qeyd olunduğu bənd doğru cavabdır.*

**A variantı 14 saylı test tapşırığı**
**B variantı 19 saylı test tapşırığı**
**C variantı 22 saylı test tapşırığı**
**D variantı 21 saylı test tapşırığı**

Choose the correct option.

*David was … than his classmates.*

A) tall B) taller C) more taller
D) most tallest E) the most tall

**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir

**Bölmə:** Sifət

**İzah**: *Bu test tapşırığında verilmiş cümləni tamamlamaq üçün müvafiq sifəti seçmək tələb olunur. Bildiyimiz kimi, ingilis dilində cümlədə* ***"than"*** *bağlayıcısı sifətin müqayisə dərəcəsində olmasını tələb edir. Buna görə də,* ***"tall", "more taller", "most tallest", "the most tall"*** *olan bəndlər yalnışdır. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *"****taller****" sifətinin qeyd olunduğu bənddir.*

**A variantı 15 saylı test tapşırığı**
**B variantı 21 saylı test tapşırığı**
**C variantı 13 saylı test tapşırığı**
**D variantı 15 saylı test tapşırığı**

Make up a sentence.

1. in Brighton
2. he
3. a taxi
4. arrived
5. Mr. Reed
6. when
7. took
8. to the hotel

A) 5, 8, 4, 2, 7, 3, 1, 6 B) 6, 2, 7, 3, 4, 1, 5, 8
C) 5, 7, 8, 3, 6, 4, 2, 1 D) 2, 4, 8, 6, 7, 5, 3, 1
E) 6, 5, 4, 1, 2, 7, 3, 8

**Alt-standart:** 5-4.1.1. Verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur.
**Bölmə:** Cümlə düzəltmə
**İzah:** *Bu test tapşırığında verilmiş sözləri müvafiq ardıcıllıqla düzməklə cümlə qurmaq tələb olunur. Verilmiş sözlərin doğru ardıcıllığı* ***6, 5, 4, 1, 2, 7, 3, 8 (When Mr.Reed arrived in Brighton, he took a taxi to the hotel)*** *kimidir və bu ardıcıllıq olan bənd test tapşırığının* ***doğru cavabıdır****.*

**A variantı 16 saylı test tapşırığı**
**B variantı 17 saylı test tapşırığı**
**C variantı 20 saylı test tapşırığı**
**D variantı 20 saylı test tapşırığı**

Choose the correct preposition for both sentences.
*He is good … playing tennis.*
*He had to work hard … his English.*

A) in B) on C) for D) by E) at

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Sözönü
**İzah**: *Bu test tapşırığında verilmiş cümlələrdə buraxılmış sözönüləri əlavə etməklə cümlələri tamamlamaq tələb olunur. Verilən cümlələrdə* ***"to be good ... sth"*** *və* ***"to work ... sth"*** *ifadələri "****at****" sözönü ilə işləndiyi üçün* ***doğru cavab "at"*** *sözönü olan bənddir.*

**A variantı 17 saylı test tapşırığı**
**B variantı 7 saylı test tapşırığı**
**C variantı 18 saylı test tapşırığı**
**D variantı 12 saylı test tapşırığı**

Choose the correct option.
*This furniture … very expensive.*

A) is B) weren't C) are D) aren't E) were

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Mübtəda ilə xəbərin uzlaşması
**İzah:** *Bu test tapşırığında verilmiş cümlədə mübtəda ilə xəbərin düzgün uzlaşmasını seçmək tələb olunur. Cümlənin mübtədası* ***"furniture"*** *tək sayılmayan isim olduğu üçün cümlənin xəbəri də onunla uzlaşmalı və təkdə olmalıdır. Verilmiş feillərdən* ***"weren't", "are", "aren't", "were"*** *feilləri cəmdə olduğu üçün səhvdir. Beləliklə, test tapşırığının* ***doğru cavabı "is"*** *olan bənddir.*

**A variantı 18 saylı test tapşırığı**
**B variantı 18 saylı test tapşırığı**
**C variantı 17 saylı test tapşırığı**
**D variantı 10 saylı test tapşırığı**

Choose the correct conjunction.
*I can't go with you … I am busy.*

A) although B) because C) before
D) as soon as E) though

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Bağlayıcı
**İzah**: *Bu test tapşırığında verilmiş cümləni müvafiq bağlayıcı ilə tamamlamaq tələb olunur. Verilmiş* ***"I can't go with you … I am busy"*** *cümləsi səbəb budaq cümləsi olan tabeli mürəkkəb cümlədir. Bəndlərdə verilən* ***"although", "before", "as soon as"*** *və* ***"though"*** *bağlayıcıları məntiqi cəhətdən test tapşırığının doğru cavabı deyildir. Beləliklə, test* ***tapşırığının doğru cavabı "because"*** *bağlayıcısı olan bənddir.*

**A variantı 19 saylı test tapşırığı**
**B variantı 20 saylı test tapşırığı**
**C variantı 15 saylı test tapşırığı**
**D variantı 13 saylı test tapşırığı**

Choose the correct option.
*Mother asked her daughter … a glass of water.*

A) bring B) is bringing C) brings
D) will bring E) to bring

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Feilin şəxssiz formaları. Mürəkkəb tamamlıq
**İzah**: *Bu test tapşırığında verilmiş cümləni feilin müvafiq forması ilə tamamlamaq tələb olunur. Cümlədə olan* ***"to ask"*** *feilindən sonra mürəkkəb tamamlığın II hissəsi* ***"to"*** *hissəcikli məsdər olmalıdır. Ona görə də, test tapşırığının* ***doğru cavabı "to bring"*** *feili olan bənddir.*

**A variantı 20 saylı test tapşırığı**
**B variantı 10 saylı test tapşırığı**
**C variantı 7 saylı test tapşırığı**
**D variantı 16 saylı test tapşırığı**

Choose the correct interrogative sentence.

A) How many slices of bread you do eat every morning?
B) How many slices of bread eat you every morning?
C) How many slices of bread do you eat every morning?
D) How many slices of bread eat do you every morning?
E) How many slices of bread you eat every morning?

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Sual cümlələri
**İzah:** *Verilən test tapşırığında düzgün sual cümləsini müəyyən edib tamamlamaq tələb olunur. Tamamlığın təyininə verilən sualda söz sırası belə olmalıdır:* ***sual sözü + isim + köməkçi feil + mübtəda + əsas feil (+ zərflik)****. Odur ki,* ***"How many slices of bread do you eat every morning"*** *sual cümləsi bu testin* ***doğru cavabıdır****.*

**A variantı 21 saylı test tapşırığı**
**B variantı 9 saylı test tapşırığı**
**C variantı 16 saylı test tapşırığı**
**D variantı 19 saylı test tapşırığı**

Choose the correct option.
*– He put a lot of sugar in his coffee.*
– …

1. So did my mother.
2. So didn't my mother.
3. Mrs. Dales did, too.
4. Neither did Mrs. Dales.

A) 3, 4 B) 1, 2 C) 1, 3 D) 2, 3 E) 2, 4

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Zərf
**İzah**: *Bu test tapşırığında verilmiş cümləni müvafiq zərflə tamamlamaq tələb olunur. Verilmiş cümlə təsdiqdə*

*olduğu üçün* ***"So didn't my mother", "Neither did Mrs. Dales."*** *qısa cavabları test tapşırığının doğru cavabı deyildir. Beləliklə, test tapşırığının* ***doğru cavabı "So did my mother", "Mr.Dales did too"*** *qısa cavabları olan bənddir.*

**A variantı 22 saylı test tapşırığı**
**B variantı 12 saylı test tapşırığı**
**C variantı 9 saylı test tapşırığı**
**D variantı 18 saylı test tapşırığı**

Choose the correct pair of synonyms.

A) tired – exhausted
B) stupid – brave
C) bright – dark
D) fresh – old
E) lazy – intelligent

**Alt-standart:** 6- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir

**Bölmə:** Sinonimlər (sözün mənası)

**İzah:** *Bu test tapşırığında sinonim cütlüyünü seçmək tələb olunur. Bu cütlüklər arasında* ***"stupid-brave"*** *– "səfeh-cəsur",* ***"fresh-old"*** *– "təzə, tər-köhnə, qədim",* ***"bright-dark"*** *– "parlaq-qaranlıq",* ***"lazy-intelligent"*** *– "tənbəl-ağıllı (dərrakəli)" mənalarını ifadə edən sifətlər sinonim deyil.* ***"Tired-exhausted"*** *sifətlərinin hər ikisi* ***"yorğun"*** *kimi tərcümə olunduğu üçün test tapşırığının* ***doğru cavabı "tired-exhausted"*** *cütlüyü olan bənddir.*

***Read the passage and answer questions 23 – 30.***

1. The Qutb Minar – one of the tallest minarets in Asia is situated in Delhi, India. It is also the tallest tower of India and is largely made of red sandstone. It was built by the first rulers of the Delhi kingdom in the early 1200s. Though the Qutb Minar was damaged by lightning and earthquakes in the Middle Ages, it was then rebuilt and repaired by local rulers.

2. As a minaret, the Qutb Minar has balconies from which the people are called to pray five times a day. The writings on the Qutb Minar describe a historical event which shows how the Delhi kingdom defeated its enemies. So the Qutb Minar was considered the kingdom's victory monument at that time.

3. The Qutb Minar together with some other historical buildings forms the Qutb Minar Complex. This Complex hosts a cultural event which is called the Qutb Festival. It takes place every year and lasts for three days inside the complex from November to December. The event witnesses a huge success along with performances given by various singers, musicians and dancers. The Qutb Minar Complex was declared a World Heritage site by UNESCO in 1993. The Qutb Minar is still an important landmark of Indian architecture.

**A variantı 23 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**

Complete the sentence according to the passage.
*The Qutb Minar … .*

A) was damaged by natural disasters in the past
B) is not recognized as an important monument in India
C) was considered one of the lowest minarets in Asia
D) is a monument built of black sandstone
E) is a complex which hosts a festival lasting for a week

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Mətnə əsasən cümlənin düzgün sonluğunu tapmaq tələb olunur. Verilmiş yarımçıq cümləni tamamlamaq üçün mətnin I abzasının son cümləsinə nəzər yetirmək lazımdır:* ***"Though the Qutb Minar was damaged by lightning and earthquakes in the Middle Ages, it was then rebuilt and repaired by local rulers."*** *Baxmayaraq ki, orta əsrlərdə Qutb Minar şimşək və zəlzələlərdən zərər görmüşdür, sonralar o, yerli hökmdarlar tərəfindən yenidən tikilmiş və bərpa edilmişdir. Buradan aydın olur ki, test tapşırığının* ***doğru cavabı "was damaged by natural disasters in the past"*** *fikrinin qeyd olunduğu bənddir.*

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**

The passage is mainly about … .

A) a significant landmark in India
B) the writings on the Qutb Minar
C) festivals held in the Qutb Minar Complex
D) various performances in the Qutb Festival
E) the first rulers of the Delhi kingdom

**Alt-standart:** 7-3.1.4. Mətndəki əsas fikri müəyyən edir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnin əsasən nədən bəhs etdiyi soruşulur. Verilmiş bəndlərdən* ***"the writings on the Qutb Minar", "festivals held in the Qutb Minar Complex", "various performances in the Qutb Festival"*** *və* ***"the first rulers of the Delhi kingdom"*** *fikirləri mətndə verilsə də, mətnin əsas məzmununu təşkil etmir. Mətn, əsasən,* ***Hindistanda əhəmiyyətli bir nişangahdan (abidədən)*** *bəhs etdiyi üçün test tapşırığının* ***doğru cavabı "a significant landmark in India"*** *olan bənddir.*

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 23 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 24 saylı test tapşırığı**

Which statement is true according to the passage?

A) The Qutb Minar was built by UNESCO in 1993.
B) The Qutb Minar Complex was rebuilt by foreign rulers.
C) The Qutb Festival is held in the Qutb Minar Complex in spring.
D) They used mainly wood in the construction of the Qutb Minar.
E) From the balconies of the Qutb Minar people are invited to pray.

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnə əsasən düzgün fikirləri seçmək tələb olunur. Mətnlə tanış olduqda görürük ki,* ***"The Qutb Minar Complex was rebuilt by foreign rulers.", "They used mainly wood in the construction of the Qutb Minar.", "The Qutb Festival is held in the Qutb Minar Complex in spring."*** *və* ***"The Qutb Minar was built by UNESCO in 1993."*** *fikirlərində təhriflər var.* ***"As a minaret, the Qutb Minar has balconies from which the people are called to pray five times a day." (Minarə kimi Qutb Minarın insanları gündə beş dəfə ibadətə çağıran eyvanları var)*** *fikri mətndə öz əksini tapdığına görə, test tapşırığının* ***doğru cavabı*** *"****From the balconies of the Qutb Minar people are invited to pray****." olan bənddir.*

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 23 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

Choose the correct answer to the question according to the passage.

*What is the Qutb Festival?*

1. It is a cultural event that takes place annually.
2. It is a traditional event dedicated to the victory of the Delhi kingdom.
3. It is a festival where various singers and dancers give performances.
4. It is a festival celebrating the monument's modern history.

A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 2, 4 E) 1, 3

**Alt-standart:** 5-3.1.4. Mətnin məzmununa uyğun suallara cavab verir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Verilmiş sualda Qutb Festivalı barədə düzgün fikirləri seçmək tələb olunur. Mətnin III abzasında verilən cümlələrdən bu sualın cavabını müəyyənləşdirmək mümkündür:* ***"This Complex hosts a cultural event which is called the Qutb Festival. It takes place every year and lasts for three days inside the complex from November to December. The event witnesses a huge success along with performances given by various singers, musicians and dancers ."*** *Bu cümlələrdən aydın olur ki, test tapşırığının* ***doğru cavabı*** *"****It is a cultural event that takes place annually****" və "****It is a festival where singers and dancers give performances****" olan bənddir.*

***Fulfil the tasks number 27 – 30 in the "Answer sheets".***

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**

Write the synonym of the given word "*immense*" from paragraph 3.

**Alt-standart:** 10-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada* ***"immense" (böyük, nəhəng)*** *sözünün abzas 3-də sinonimini müəyyən edib yazmaq tələb olunur. Bu test tapşırığının* ***doğru cavabı "huge" (böyük, nəhəng)*** *sözüdür.*

**A variantı 28 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**

Which word from paragraph 1 best fits the following definition "*to fix something that is broken, damaged or torn*"?

**Alt-standart:** 7- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada izahı verilmiş sözü 1-ci abzasda nüəyyən edib yazmaq tələb olunur. İzahı verilən söz* ***"to repair" (təmir etmək)*** *feilidir.*

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**

Complete the sentence by changing at least 2 words according to the passage.

*The writings on the Qutb Minar describe a historical event … .*

**Alt-standart:** 8- 3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır; 9-3.1.4. Oxuduğu mətnin məzmununa münasibət bildirir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada verilmiş cümləni mətnə əsasən ən azı 2 sözü dəyişməklə tamamlamaq tələb olunur. Verilmiş* ***"The writings on the Qutb Minar describe a historical event … ."*** *cümləsini* ***"…*** *which* ***(that)*** *shows* ***(indicates, depicts, portrays, illustrates)*** *how the Delhi kingdom* ***(realm)*** *defeated* ***(overcame, destroyed)*** *its enemies* ***(foes)"*** *şəklində tamamlamaq mümkündür.*

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**

Answer the question by expressing your opinion. Write at least three sentences.

*What can we learn from historical monuments?*

**Alt-standart:** *7 – 4.1.2. Müxtəlif əşya və hadisələri təsvir edir. 9 – 4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır. 10 – 4.1.3. Cümlələri və abzasları düzgün əlaqələndirmək üçün bağlayıcı vasitələrdən istifadə edir. 11 – 3.1.4. Mətndəki fakt və hadisələri real həyatla əlaqələndirərək şərh edir.*

**İzah:** *Bu açıq tipli suala öz fikrini ifadə etməklə ən azı üç cümlə ilə cavab yazmaq tələb olunur. Cavab yazarkən birləşdirici vasitələrin köməyi ilə fikirləri əlaqəli və ardıcıl şəkildə ifadə etmək, fikirlər arasında məntiqi rabitəni təmin etmək, müxtəlif qrammatik forma və strukturlardan (sadə və mürəkkəb cümlələr) düzgün və yerində istifadə etməklə zaman uzlaşmasını gözləmək və mövzuya uyğun söz və söz birləşmələrindən yerində və düzgün şəkildə istifadə etmək tələb olunur. Bu suala nümunə cavab aşağıdakı kimi ola bilər:*

***There are a lot of historical monuments in the world. They are the treasure of every country. These historical monuments can give us a lot of information about the history of a certain country. We can learn about the culture, architecture, religion, arts, historical figures and many more based on them.***

## Azərbaycan dili

### A variantı 31 saylı test tapşırığı
### B variantı 38 saylı test tapşırığı
### C variantı 39 saylı test tapşırığı
### D variantı 40 saylı test tapşırığı

Cümlədə yol verilmiş səhvləri düzəltmək üçün altından xətt çəkilmiş hansı hissələri cümlənin tərkibindən çıxarmaq lazımdır?

*Nə[1] tamaşaçılar vaxtında gəlmə[2]dilər[3], nə də[4] konsert deyilən vaxt başlama[5]dı.*

A) 1, 4, yaxud 2, 3
B) 1, 4, yaxud 2, 5
C) 2, 3, yaxud 4, 5
D) 2, 4, yaxud 3, 5
E) 1, 3, yaxud 2, 4

***Mövzu:*** Feil
***Sinif:*** 6-7
***Alt-standart:*** 4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.
***İzah:*** *Nə, nə də* inkarlıq bağlayıcısı işlənən cümlənin xəbəri təsdiqdə olmalıdır (*Nə[1] tamaşaçılar vaxtında gəldilər[3], nə də[4] konsert deyilən vaxt başladı.*) və ya xəbəri inkarda olan cümlədə inkarlıq bağlayıcısı işlənməməlidir (*Tamaşaçılar vaxtında gəlmə[2]dilər[3], konsert deyilən vaxt başlama[5]dı.*).
***Doğru cavab:*** 1, 4, yaxud 2, 5

### A variantı 32 saylı test tapşırığı
### B variantı 32 saylı test tapşırığı
### C variantı 40 saylı test tapşırığı
### D variantı 31 saylı test tapşırığı

Nümunələrin birində tərkibində leksik şəkilçi olan isim müstəqil cümlə üzvü ***deyil***:

A) Adam əlindəki süpürgəni divara söykədi. (M. Hüseyn)
B) Yoxlamadığı bir fərziyyəni ən yaxın dostlarına belə açıb söyləməzdi. (M. Hüseyn)
C) Çoban yara izini gizlətməyə cəhd edirdi. (M. Rzaquluzadə)
D) Gülşən xeyli fikirləşdikdən sonra stolun sağ tərəfindəki kitabçanı əlinə götürdü. (Ə. Vəliyev)
E) Ağarəhim ömründə belə gəlincik görməmişdi. (İ. Məlikzadə)

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5-9
***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənasına görə fərqləndirir; 4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.

***İzah:*** *Çoban yara izini gizlətməyə cəhd edirdi* cümləsində *yara* sözü düzəltmə isimdir, söz birləşməsinin tərkib hissəsi olduğundan müstəqil cümlə üzvü deyil. Digər cümlələrdə düzəltmə isim işlənsə də, hər biri müstəqil cümlə üzvüdür.
***Doğru cavab:*** Çoban yara izini gizlətməyə cəhd edirdi. (M.Rzaquluzadə)

### A variantı 33 saylı test tapşırığı
### B variantı 35 saylı test tapşırığı
### C variantı 35 saylı test tapşırığı
### D variantı 37 saylı test tapşırığı

*Kim məhsul yığımına kömək eləsə, sədr onun məzuniyyət müddətini artıracaq* cümləsi haqqındakı fikirlərdən biri ***səhvdir***:

A) Həm baş, həm budaq cümlədə ikinci dərəcəli üzv işlənmişdir.
B) Baş cümlənin xəbəri feilin xəbər şəkli ilə ifadə olunmuşdur.
C) Budaq cümlə baş cümlədən əvvəl gəlmişdir.
D) Tərkibindəki hər iki cümlənin mübtədası var.
E) Budaq cümlə baş cümləyə bağlayıcı söz və *isə* köməkçi sözünün (hissəciyinin) ixtisar forması ilə bağlanmışdır.

***Mövzu:*** Tabeli mürəkkəb cümlə
***Sinif:*** 9
***Alt-standart:*** 4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir; 4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.
***İzah:*** *Kim məhsul yığımına kömək eləsə, sədr onun məzuniyyət müddətini artıracaq* cümləsində budaq cümlə baş cümləyə bağlayıcı söz və şərt şəkilçisi ilə bağlanmışdır. Bu səbəbdən *Budaq cümlə baş cümləyə bağlayıcı söz və isə köməkçi sözünün (hissəciyinin) ixtisar forması ilə bağlanmışdır* fikri yanlışdır.
***Doğru cavab:*** Budaq cümlə baş cümləyə bağlayıcı söz və *isə* köməkçi sözünün (hissəciyinin) ixtisar forması ilə bağlanmışdır.

### A variantı 34 saylı test tapşırığı
### B variantı 33 saylı test tapşırığı
### C variantı 34 saylı test tapşırığı
### D variantı 38 saylı test tapşırığı

*Uzaqdan gələnlər xəstəyə baş çəkəndən bir neçə saat sonra xidmətçilər atları yəhərlədilər* cümləsinin sintaktik təhlil sxemini müəyyən edin.

A) ——— ≈≈≈ ≈≈≈ - - - - ═══
B) ——— ≈≈≈ ≈≈≈ ═══
C) ——— ≈≈≈ ═══
D) ≈≈≈ ——— ≈≈≈ - - - - ═══
E) ≈≈≈ ——— - - - - ═══

***Mövzu:*** Sintaktik təhlil
***Sinif:*** 5-8
***Alt-standart:*** 4.1.2. Söz və söz birləşməsinin sintaktik vəzifəsini müəyyən edir.
***İzah:*** *Uzaqdan gələnlər xəstəyə baş çəkəndən bir neçə saat sonra xidmətçilər atları yəhərlədilər* cümləsində *Uzaqdan gələnlər xəstəyə baş çəkəndən bir neçə saat sonra* – zərflik, *xidmətçilər* – mübtəda, *atları* – tamamlıq, *yəhərlədilər* – xəbər.
***Doğru cavab:*** ≈≈≈ ——— - - - - ═══

**A variantı 35 saylı test tapşırığı**
**B variantı 37 saylı test tapşırığı**
**C variantı 31 saylı test tapşırığı**
**D variantı 32 saylı test tapşırığı**

Hansı cərgədəki hər iki sözdə eyni hərf buraxılmışdır?
A) fav...rit, pi...nino
B) çam...dan, fil...rmoniya
C) fan...tizm, mavz...ley
D) prot...tip, met...for
E) dağüs...ü, comər...

***Mövzu:*** Orfoqrafiya
***Sinif:*** 5-11
***Alt-standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
***İzah:*** *Test tapşırığının cavab bəndlərindəki sözlərin düzgün yazılışı belədir:* çam**a**dan, fil**a**rmoniya; dağüs**t**ü, comər**d**; fav**o**rit, pi**a**nino; fan**a**tizm, mavz**o**ley; pro**to**tip, met**a**for
***Doğru cavab:*** çam**a**dan, fil**a**rmoniya

**A variantı 36 saylı test tapşırığı**
**B variantı 39 saylı test tapşırığı**
**C variantı 38 saylı test tapşırığı**
**D variantı 34 saylı test tapşırığı**

*Doğrudan, nə böyük bir təmtəraqla,*
*Calalla qurulmuş burada təbiət.*
*Baxdıqca gözəldir bu canlı sənət.* (S. Vurğun)
Nümunəyə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| ***Doğrudur*** | ***Yanlışdır*** |
|---|---|
| 1. Düzəltmə sifətlərdən birinin kökü feillə omonimdir.<br>2. Tərzi-hərəkət zərfləri təsriflənməyən feilə aiddir.<br>3. Həm əvəzlik, həm də əvəzliklə omonim olan ədat işlənmişdir. | 4. Təsriflənməyən feil məchul növdədir.<br>5. İsimlər adlıq və yerlik hallarda işlənmişdir. |

A) 3, 4, 5 B) 1, 3, 5 C) 1, 2
D) 1, 3, 4 E) 2, 4

***Mövzu:*** Morfoloji təhlil
***Sinif:*** 5-7
***Alt-standart:*** 4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir; 4.1.2. Sözləri ümumi qrammatik mənasına görə fərqləndirir.
***İzah:*** Cədvəlin ***Doğrudur*** başlıqlı sütununda verilmiş *Düzəltmə sifətlərdən birinin kökü feillə omonimdir* fikri yanlışdır, çünki mətndəki böyük sifətinin kökünün özü feildir, canlı sifətinin kökünün də feillə omonimliyi yoxdur. *Tərzi-hərəkət zərfləri təsriflənməyən feilə aiddir* fikri yanlışdır, çünki *təmtəraqla, calalla* tərzi-hərəkət zərfləri təsriflənən feilə aiddir. Həm əvəzlik, həm də əvəzliklə omonim olan ədat işlənmişdir fikri doğrudur, çünki *bu* əvəzlikdir, *nə* əvəzliklə omonim olan ədatdır. ***Yanlışdır*** başlıqlı sütunda verilmiş Təsriflənməyən feil *məchul növdədir* fikri yanlışdır, çünki *baxdıqca* feili məlum növdədir. *İsimlər adlıq və yerlik hallarda işlənmişdir* fikri yanlışdır, çünki *təbiət* və *sənət* isimləri adlıq halda olsa da, yerlik halda işlənmiş isim yoxdur.
***Doğru cavab:*** 3, 4, 5

**A variantı 37 saylı test tapşırığı**
**B variantı 36 saylı test tapşırığı**
**C variantı 37 saylı test tapşırığı**
**D variantı 35 saylı test tapşırığı**

Nümunələrdə işlənmiş xitablara əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.
▲ *Gözəl dost, dinləsin qoy məni aləm. (S. Vurğun)*
■ *Of, dostum, qardaşım, xoş buyurmusan. (S. Vurğun)*

| ▲ | ■ |
|---|---|
| 1. Söz birləşməsi ilə ifadə olunmuşdur. | 4. Nitq hissəsi ilə ifadə olunmuşdur. |
| 2. Xəbərlə tabelilik əlaqəsindədir. | 5. Xitab ona qoşulmuş nida ilə birlikdə müraciət bildirir. |
| 3. Vergül işarəsi olmasa, mübtəda kimi də düşünmək mümkündür. | 6. Xitaba aid təyin işlənmişdir. |

A) 3, 6 B) 2, 4, 6 C) 3, 5 D) 1, 4 E) 1, 2, 5

***Mövzu:*** Xitab
***Sinif:*** 8
***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənasına görə fərqləndirir; 4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.

***İzah:*** *Gözəl dost, dinləsin qoy məni aləm* cümləsindəki xitabla bağlı cədvəldə verilmiş *Söz birləşməsi ilə ifadə olunmuşdur* fikri doğrudur, *gözəl dost* söz birləşməsidir; *Xəbərlə tabelilik əlaqəsindədir* fikri yanlışdır, xitab ümumiyyətlə, cümlə üzvləri ilə sintaktik əlaqəyə girmir; *Vergül işarəsi olmasa, mübtəda kimi də düşünmək mümkündür* fikri yanlışdır. *Of, dostum, qardaşım, xoş buyurmusan cümləsindəki* xitabla bağlı *Nitq hissəsi ilə ifadə olunmuşdur* fikri doğrudur, *dostum, qardaşım* xitabları isimdir; *Xitab ona qoşulmuş nida ilə birlikdə müraciət bildirir* fikri yanlışdır, *of* nidası xitaba qoşulmamışdır. *Xitaba aid təyin işlənmişdir* fikri yanlışdır, ümumiyyətlə, xitabın təyini olmur.
***Doğru cavab:*** 1, 4

**A variantı 38 saylı test tapşırığı**
**B variantı 40 saylı test tapşırığı**
**C variantı 36 saylı test tapşırığı**
**D variantı 33 saylı test tapşırığı**

Hansı cümlələrdə mübtəda vəzifəsində olan *o, bu* əvəzliklərindən sonra vergül düzgün ***qoyulmayıb***?
1. Bu, anamdan qalan yeganə nişanədir.
2. Bu, hər kəsin marağını ifadə edir.
3. Demə, bu, dostumdur, o, düşmənimdir.
4. Bu, göyərçinlərin xatirələrimizi oyadan səsidir.
5. O, ağıllı adamlarla dostluq edir.
6. O, heç yaşıl meşəni belə təsəvvür etmirdi.
A) 1, 3, 5 B) 1, 5, 6 C) 2, 6 D) 2, 4 E) 3, 4

***Mövzu:*** Əvəzlik
***Sinif:*** 6
***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənasına görə fərqləndirir; 4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.
***İzah:*** *Bu, anamdan qalan yeganə nişanədir* cümləsində *bu* mübtədasından sonra isim işləndiyi üçün vergül qoyulmalıdır. *Bu, hər kəsin marağını ifadə edir* cümləsində *bu* mübtədasından sonra əvəzlik işləndiyi üçün vergül qoyulmamalıdır. *Demə, bu, dostumdur, o, düşmənimdir* və *Bu, göyərçinlərin xatirələrimizi oyadan səsidir* cümlələrində *o*, *bu* mübtədalarından sonra isim işləndiyi üçün vergül qoyulmalıdır. *O, ağıllı adamlarla dostluq edir* cümləsində *o* mübtədasından sonra sifət işləndiyi üçün vergül qoyulmalıdır. *O, heç yaşıl meşəni belə təsəvvür etmirdi* cümləsində *o* mübtədasından sonra köməkçi nitq hissəsi (ədat) işləndiyi üçün vergül qoyulmamalıdır.
***Doğru cavab:*** 2, 6

## A variantı 39 saylı test tapşırığı
## B variantı 34 saylı test tapşırığı
## C variantı 33 saylı test tapşırığı
## D variantı 36 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.
1. feili bağlama tərkibi işlənən cümlə
2. feili sifət tərkibi işlənən cümlə
3. məsdər tərkibi işlənən cümlə

a. Dağlar aşan seləm mən...
b. Uzun yollar keçərək
Gəldim, anam, görüşək.
c. Vida deyib elimə
Yolu aldım əlimə.
d. Bu bayrağı ucaltmaq
İşi deyil hər kəsin!..
e. Azadlığın yolunda
Ölmək bizə şərəfdir!..

A) 1 – b, c; 2 – a; 3 – d, e B) 1 – d, e; 2 – c; 3 – a, b
C) 1 – b, d; 2 – a, e; 3 – c D) 1 – c, e; 2 – b; 3 – a, d
E) 1 – a, b; 2 – c, d; 3 – e

***Mövzu:*** Feili birləşmələr
***Sinif:*** 8
***Alt-standart:*** 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.
***İzah:*** Test tapşırığında verilmiş cümlələrdəki feili bağlama tərkibləri*: uzun yollar keçərək, vida deyib elimə;* feili sifət tərkibi: *dağlar aşan*; məsdər tərkibləri: *bu bayrağı ucaltmaq, azadlığın yolunda ölmək.*
***Doğru cavab:*** 1 – b, c; 2 – a; 3 – d, e

## A variantı 40 saylı test tapşırığı
## B variantı 31 saylı test tapşırığı
## C variantı 32 saylı test tapşırığı
## D variantı 39 saylı test tapşırığı

Frazeoloji birləşmələrdən biri mənaca "*başdan çıxarmaq*" birləşməsinin sinonimidir:
A) burnunun ucu göynəmək
B) ağlını əlindən almaq
C) canına yağ kimi yayılmaq
D) ağlını başına yığmaq
E) baş-beynini aparmaq

***Mövzu:*** Leksika
***Sinif:*** 5
***Alt-standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
***İzah:*** Test tapşırığının cavab bəndlərindəki frazeoloji birləşmələr *baş-beynini aparmaq* – dəng etmək, zəhlə tökmək; *burnunun ucu göynəmək* – darıxmaq; *canına yağ kimi yayılmaq* – xoşhallanmaq, ləzzət almaq; *ağlını başına yığmaq* – ağıllanmaq, götür-qoy edib nəticə çıxarmaq mənalarını ifadə edir. *Ağlını əlindən almaq* frazeoloji birləşməsi tapşırığın şərtində soruşulan *başdan çıxarmaq* frazeoloji birləşməsinin sinonimidir və hər iki frazeoloji birləşmə azdırmaq, pis yola çəkmək mənasını bildirir.
***Doğru cavab:*** ağlını əlindən almaq

***41 – 50 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**İlk addımlar**

Gəmidə və tikintidə çalışdığım işlərdə ▲ *ağzım yanandan* sonra özümə uyğun iş tapa bilmirdim. Əmim oğlu məni gəmiyə qaytarmaq üçün nə qədər çalışsa da, razı olmadım. Nəhayət, küsüb dedi:

– Veyil-veyil gəzməyə adət etmisən. Daha səndən adam olmaz.

| |
|---|
| Bir dəfə axşamüstü evimizə səmtlənərkən mənim kimi teatra həvəs bəsləyən bir neçə gənclə rastlaşdım. |

– Sabah axşam gələrsən Təzəpirin üst tərəfinə – Rəhim bəy Məmmədovgilə. Orada rol bölüb məşq edəcəyik, – dedilər.

Səhər ora getdim. İzahat verdilər ki, təhsilini davam etdirmək istəyən bir neçə yoxsul tələbənin xeyrinə tamaşa vermək istəyirlər. Nəriman Nərimanovun rejissorluğu ilə onun "Dilin bəlası" komediyasını oynamağı qərara aldıq. Rollar paylandı, Rəsul rolunu mənə verdilər. Pyesə lazım olan paltarların tapılmasını da mənə tapşırdılar.

Kişi paltarlarını birtəhər tapdım. Qadın paltarından ötrü kimsəyə ■ *ağız açmaq* olmazdı. Odur ki evdən nənəmin, xalalarımın paltarlarını oğurlayıb aparmaq fikrinə düşdüm. Gecə onların otağına **keçdim**[1], paltarlarını götürüb sabah teatra apardım.

Beləliklə, ilk dəfə Rəsul rolunda səhnəyə çıxdım. Tamaşa uğurla keçdi. Evə gəlib istədim, gizlincə paltarları yerinə qoyam. Qapını açar-açmaz qadınlar üstümə hücum etdilər:

– Elə bu qalmışdı ki, bizim paltarlarımızı oyunbazxanalara aparıb xalqa göstərəsən. Utanmaz!

Tamaşanın uğurla keçməsi, ilk dəfə səhnəyə çıxmağım məni sevindirsə də, evdə abrımı almaları ● *kefimə soğan doğradı*.

Səhər qohum-əqrəba bizim evə yığışmışdı. Sözə dayım oğlu Nemət başladı:

– Hüseynqulu, bu bir yol deyil, sən gedirsən. Ana-bacının paltarını aparıb xalqa göstərmək hansı qeyrətə sığar? Sabah xalq bizə nə deyər? İndiyə qədər elədiklərini biz sənin üçün **keçirik**[2]. İstəyirsən, xalq arasında hörmətin olsun, gərək məktəbdən, teatrdan əl çəkəsən, məsciddə ibadət sənə

yetər. Bunları etməsən, bizim Hüseynqulu adında qohumumuz yoxdur!

İki gün bu sözlərin təsiri ilə fikirli dolaşdım. Üçüncü gün yolda Nərimanovla qarşılaşdım, vəziyyəti ona danışdım. O dedi:

– Xalqa qulluq etməyi, xalqın da səni dəyərləndirməyini istəyirsənsə, avam camaatın, qohumların zərbəsinə dözüb səhnədə çalışmalısan. Bizim səhnəmiz belə qalmayacaq, yüksələcəkdir. Gün gələcək, xalqımız bizim səylərimizlə savadlanacaq, cəhalətdən uzaqlaşacaq. Bu gün camaat sənin kimi xalqın gələcəyi üçün yolundan dönmədən çalışan gənci döyüb-söysə də, vaxt gələcək, alqışlayacaq. Əqidəndə möhkəm ol!

Nərimanovun hər kəlməsi güvən ifadə edirdi, düşüncələrimdəki buludlar dağıldı. Fikrim qəti idi: teatrı buraxmayacaqdım.

## A variantı 41 saylı test tapşırığı
## B variantı 41 saylı test tapşırığı
## C variantı 41 saylı test tapşırığı
## D variantı 41 saylı test tapşırığı

Mətnə əsasən səbəbini müəyyən etmək mümkün ***deyil***:

A) Hüseynqulunun “oğurluğunun”.
B) Bir neçə gəncin Hüseynqulunu Rəhim bəy Məmmədovgilə dəvət etməsinin.
C) Teatr həvəskarlarının tamaşa təşkil etməsinin.
D) Hüseynqulunun yolda Nərimanovla qarşılaşmasının.
E) Qohumların qəzəbinin.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** *Hüseynqulunun “oğurluğunun”* səbəbi teatra qadın paltarı aparmaq tapşırığını yerinə yetirməkdir. *Bir neçə gəncin Hüseynqulunu Rəhim bəy Məmmədovgilə dəvət etməsinin* səbəbi ona tamaşada rol verməkdir. *Teatr həvəskarlarının tamaşa təşkil etməsinin* səbəbi təhsilini davam etdirmək istəyən bir neçə yoxsul tələbənin xeyrinə tamaşa verməkdir. *Qohumların qəzəbinin* səbəbi Hüseynqulunun evdəki qadınların paltarlarını teatra aparmağıdır. Lakin mətndə *Hüseynqulunun yolda Nərimanovla qarşılaşmasının* səbəbi verilməmişdir.
***Doğru cavab:*** Hüseynqulunun yolda Nərimanovla qarşılaşmasının

## A variantı 42 saylı test tapşırığı
## B variantı 42 saylı test tapşırığı
## C variantı 42 saylı test tapşırığı
## D variantı 42 saylı test tapşırığı

Mətndə üzərində rəqəm yazılmış sözlərlə bağlı uyğunluğu müəyyən edin.

1.
2.

a. Həqiqi mənadadır.
b. Kontekstə görə “*bağışlamaq*” sözünün qarşılığıdır.
c. “*Maşınlar bir-birini sürətlə ötürdülər*” cümləsində sözün kontekstə görə qarşılığı işlənmişdir.
d. Məcazi mənadadır.
e. “*Əlindəki sənədlərə baxa-baxa kabinetə girdi*” cümləsində sözün qarşılığı var.

A) 1 – d, e; 2 – a, c B) 1 – a, e; 2 – b, d C) 1 – a, c; 2 – b, d D) 1 – b, d; 2 – a, e E) 1 – c, d; 2 – a, e

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.1.2. Sözləri həqiqi və məcazi mənada işlənməsinə görə fərqləndirir; 2.1.1. Tanış olmadığı söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.
***İzah:*** Mətndə üzərində *1* rəqəmi yazılmış söz həqiqi mənadadır və *Əlindəki sənədlərə baxa-baxa kabinetə girdi* cümləsində *girdi* sözünün qarşılığıdır. Üzərində *2* rəqəmi yazılmış söz isə məcazi mənadadır və kontekstə görə “*bağışlamaq*” sözünün qarşılığıdır.
***Doğru cavab:*** 1 – a, e; 2 – b, d

## A variantı 43 saylı test tapşırığı
## B variantı 45 saylı test tapşırığı
## C variantı 44 saylı test tapşırığı
## D variantı 43 saylı test tapşırığı

Hüseynqulu obrazı ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Teatra olan həvəsi işini itirməsinə səbəb olur.
2. Qohumların nəsihəti müəyyən məqamda onda tərəddüd yaradır.
3. Xeyriyyə işində iştirak edir.
4. Doğulduğu mühitin davranış normalarına uyğun hərəkət edir.

A) 1, 2 B) 2, 4 C) 3, 4 D) 2, 3 E) 1, 4

***Mövzu:*** Mətn
***Alt-standart:*** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.
***Sinif:*** 5-11
***İzah:*** Mətndən məlum olur ki, qohumların Hüseynquluya nəsihət verməsi onun fikirlərinin qarışmasına və tərəddüdünə səbəb olur. Həmçinin təhsilini davam etdirməyə imkanı çatmayan tələbələr üçün tamaşada iştirak etməsi onun xeyriyyə işlərindəki fəaliyyətini göstərir. İşini itirməsinə səbəb isə gəmidə və tikintidə çalışarkən qarşılaşdığı çətinliklərdir. Qohumları onu məktəbdən və teatrdan əl çəkməyə təhrik etsələr də, o tabe olmur, öz yolundan çəkilmir.
***Doğru cavab:*** 2, 3

## A variantı 44 saylı test tapşırığı
## B variantı 43 saylı test tapşırığı
## C variantı 45 saylı test tapşırığı
## D variantı 45 saylı test tapşırığı

Mətnə əsasən Eyler-Venn diaqramındakı ***yanlış*** fikirləri müəyyən edin.




A) 1, 3, 5 B) 1, 4 C) 2, 4 D) 3, 4, 5 E) 2, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.
***İzah:*** Mətndə *Öz yolu ilə irəliləmək istəyən gəncə məsləhət* fikri həm qohumların, həm də Nərimanovun fikirlərində əksini tapdığından Eyler-Venn diaqramının kəsişməsində qeyd olunmalı idi. *Ehtiyatlı davranmağa çağırış fikri* isə Nərimanovun fikirlərində öz əksini tapmadığından yanlışdır.
***Doğru cavab:*** 2, 5

## A variantı 45 saylı test tapşırığı
## B variantı 44 saylı test tapşırığı
## C variantı 43 saylı test tapşırığı
## D variantı 44 saylı test tapşırığı

Mətnə əsasən klasteri tamamlayan fikirləri müəyyən edin.




1. aktyordur. 2. alimdir.
3. maarifpərvərdir. 4. dramaturqdur.
5. naşirdir.

A) 1, 5 B) 2, 5 C) 2, 4 D) 3, 4 E) 1, 3

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** Mətndə Nərimanov gənclərin, xalqın savadlanmasına çalışdığı və bu yolda fəaliyyət göstərdiyi üçün maarifpərvərdir. Həmçinin mətndə Nərimanovun komediya müəllifi olduğu göstərilir, demək, dramaturqdur.
***Doğru cavab:*** 3, 4

## A variantı 46 saylı test tapşırığı
## B variantı 46 saylı test tapşırığı
## C variantı 46 saylı test tapşırığı
## D variantı 46 saylı test tapşırığı

Əvvəlində işarə qoyulmuş ifadələrin kontekstə əsasən mənasını müəyyən edib yazın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir; 2.1.1. Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.
***Ehtimal edilən doğru cavab variantları:***
▲ fəaliyyəti pis nəticələnmək, xeyir görməmək, zərər çəkmək, uğursuz olmaq və s.
■ xahiş etmək, kömək istəmək, dil tökmək və s.
● dilxor etmək, qanını qaraltmaq, kefini pozmaq, burnundan gətirmək (tökmək) və s.

## A variantı 47 saylı test tapşırığı
## B variantı 47 saylı test tapşırığı
## C variantı 47 saylı test tapşırığı
## D variantı 47 saylı test tapşırığı

Mətndə çərçivəyə alınmış cümləni uyğun düzəlişlər (yalnız qüsurlu məqamlarda) etməklə yenidən yazın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.
***Ehtimal edilən doğru cavab variantları:***
Bir dəfə axşamüstü evimizə *gedərkən (yollanarkən)* mənim kimi teatra həvəs *göstərən (həvəs edən, həvəsi olan, meyli olan)* bir neçə gənclə rastlaşdım.

## A variantı 48 saylı test tapşırığı
## B variantı 48 saylı test tapşırığı
## C variantı 48 saylı test tapşırığı
## D variantı 48 saylı test tapşırığı

Mətnə əsasən cədvəli tamamlayın.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

***Ehtimal edilən doğru cavab variantları:***

| | ***Təbliğ olunur*** | ***Tənqid olunur*** |
|---|---|---|
| ***Xüsusiyyətlər*** | *maarifçilik; yardımsevərlik; biganə olmamaq; xeyirxahlıq; maarifpərvərlik; təhsil almaq; teatrsevərlik;* | Cəhalət |
| ***Əsaslandırma*** | Təhsilini davam etdirmək istəyən yoxsul tələbələrin xeyrinə tamaşa göstərilir. | Hüseynqulunun qohumları ondan təhsildən, teatrdan əl çəkməsini tələb edirlər; Hüseynquludan təhsildən əl çəkərək ibadətlə kifayətlənmək tələb olunur; Gərək teatrdan əl çəkəsən, məsciddə ibadət sənə yetər; Ana-bacının paltarlarını xalqa göstərmək nə deməkdir? və s. |

**A variantı 49 saylı test tapşırığı**
**B variantı 49 saylı test tapşırığı**
**C variantı 49 saylı test tapşırığı**
**D variantı 49 saylı test tapşırığı**

Altından xətt çəkilmiş cümləni mətnin səciyyəvi üslubi xüsusiyyətlərinə uyğun zənginləşdirməklə yenidən yazın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.

***Ehtimal edilən doğru cavab variantları:***
- İki gün bu *acı (ağır, ürək parçalayan)* sözlərin təsiri ilə fikirli dolaşdım.
- İki gün bu sözlərin *ağır* təsiri ilə fikirli dolaşdım.
- İki gün bu *qılıncdan (bıçaqdan) da kəskin* sözlərin təsiri ilə fikirli dolaşdım.
- İki gün bu sözlərin təsiri ilə *xəyal (ruh, dəli) kimi* fikirli dolaşdım.
- İki gün bu sözlərin təsiri ilə *başına hava gəlmiş kimi* dolaşdım.
- İki gün bu sözlərin təsiri ilə *havalı* dolaşdım.
- İki gün bu sözlər *üzərimə ağır yük kimi çökdü* və s.

**A variantı 50 saylı test tapşırığı**
**B variantı 50 saylı test tapşırığı**
**C variantı 50 saylı test tapşırığı**
**D variantı 50 saylı test tapşırığı**

Ətrafdakı insanların Hüseynquluda gördükləri xarakter xüsusiyyətləri əsasında cədvəli tamamlayın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

***Ehtimal edilən doğru cavab variantları:***

| *Qohumlar* | *Nərimanov* |
|---|---|
| Hüseynqulu *tənbəldir (tüfeylidir, avaradır, səfildir).* | Hüseynqulu *mübarizdir (əzmkardır, mətindir, dönməzdir, əqidəlidir).* |
| Hüseynqulu *utanmazdır.* | |
| Hüseynqulu *abırsızdır (qeyrətsizdir).* | |

**Üzən şəhərlər**

Dünya əhalisinin təxminən 40 faizi 2100-cü ilə qədər yaşayış üçün yararsız olacağı düşünülən sahil zolaqlarında yaşayır. BMT məlumat verir: "İqlim dəyişiklikləri, xüsusilə qlobal istiləşmə nəticəsində şəhərlərin su altında qalması ***riskləri***[1] artır. Əhalisi 300 min nəfərdən yuxarı olan şəhərlərin təxminən 60 faizi quraqlıq, fırtına, daşqın, zəlzələ və vulkan püskürməsi riski qarşısındadır. Banqkok şəhəri hər il 2 santimetr batır, Siam körfəzində okean suyunun səviyyəsi qalxır". BMT problemin həllində bir variant kimi Sinqapurun 1965-ci ildə üzən tikililər vasitəsilə ərazisini təxminən 25 faiz artırmasını göstərir. Doğrudanmı, bu bir həll yoludur?

Su ilə harmoniyada yaşayan şəhər dedikdə ağıla İtaliyanın Venesiya şəhəri gəlir. Venesiya palçıq adalarında taxta bünövrələr üzərində qurulmuş, 400-dən çox ▲ *körpü* vasitəsilə şəhərin hissələri birləşdirilmişdir. Şəhər son əsrlərdə ***güclü***[2] daşqınlarla üzləşib. Binaların ■ *bünövrəsi* zəifləsə də, mövcudluğunu qoruyub saxlamışdır. Venesiya öz dövrünün texnoloji nailiyyəti olsa da, bu qədər güclü qlobal istiləşmənin təsirlərinə tab gətirmək üçün tikilməmişdi. Ehtimal ki, Adriatik dənizinin səviyyəsinin qalxması gələcəkdə şəhərin ... .

Fırtınasız havalarda su hövzələrində ***daim***[3] bir yerdən başqa yerə rahatlıqla üzən primitiv ev-qayıqlar qədim dövrlərdən iqtisadi cəhətdən əlverişli hesab edilmişdir. İqlimin dəyişən şərtlərinə dözümlü, yeni texnologiyalar əsasında hazırlanan üzən evlərin və şəhərlərin də ilk nümunələri yaradılmaqdadır. Belə evlərdən biri də Kanadanın Ontario şəhərindəki üzən evdir. O, göl səviyyəsinin qalxmasına tab gətirmək üçün planlanmışdır. 1000 kvadratmetrlik yaşayış sahəsi polad çərçivəli sallar üzərindədir. Bir ailənin yaşadığı ev sahilə doğru üzüb gəldikdə ətrafdakı qayalığa lövbər salır.

Maldiv adalarında dəniz səviyyəsinin qalxmasına qarşı mübarizə məqsədilə layihələndirilən şəhər modul strukturlardan ibarətdir. 2027-ci ilə qədər salınması gözlənilən şəhər bir sıra modelləşdirilmiş altıbucaqlı adalardan ibarət olacaq.

Yaponiyanın "N-Ark" şirkəti 40 min nəfərin yaşaması üçün nəzərdə tutulmuş üzən şəhər layihəsini təqdim edib. Şəhər təqribən 10 min daimi sakinin mənzil və işlə təmin edilməsini, həmçinin 30 minə qədər turistin qəbulunu nəzərdə tutur. Güman edilir ki, şəhərin yuvarlaq forması dəniz səviyyəsinin qalxmasına, hətta sunaminin təsirinə tab gətirəcək. O, süni körfəzin halqası daxilində yerləşəcək, sahilə bərkidiləcək.

Göründüyü kimi, üzən şəhərlər artıq elmi fantastika deyil, onlar planetin sahilyanı ərazilərinin itirilməsinə qarşı mübarizə aparmağın qabaqcıl yollarından biri ola bilər.

**A variantı 51 saylı test tapşırığı**
**B variantı 55 saylı test tapşırığı**
**C variantı 55 saylı test tapşırığı**
**D variantı 55 saylı test tapşırığı**

Mətnə əsasən səbəbini müəyyən etmək mümkündür:
1. Əhalinin sahil zolaqlarında yaşamasının.
2. Sinqapur modelinin nümunə kimi göstərilməsinin.

3. Subasmanın.
4. İqlim dəyişikliklərinin.
5. Binaların bünövrəsinin zəifləməsinin.
6. Adaların altıbucaqlı olaraq modelləşdirilməsinin.

A) 1, 2, 4 B) 1, 3, 6 C) 2, 3, 5
D) 1, 4, 5 E) 2, 3, 6

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** *Sinqapur modelinin nümunə kimi göstərilməsinin* səbəbi budur ki, Sinqapur üzən tikililər vasitəsilə ərazisini artıra bilib. *Subasmanın* səbəbi budur ki, qlobal istiləşmə suyun səviyyəsinin qalxması ilə nəticələnir. *Binaların bünövrəsinin zəifləməsinin* səbəbi odur ki, Adriatik dənizinin səviyyəsi qalxır və güclü qlobal istiləşmənin təsirlərinə tab gətirmək üçün hesablanmamış bünövrələr zəifləyir.
*Əhalinin sahil zolaqlarında yaşamasının, İqlim dəyişikliklərinin* və *Adaların altıbucaqlı olaraq modelləşdirilməsinin* səbəbi haqqında mətndə məlumat yoxdur.
***Doğru cavab:***2, 3, 5

## A variantı 52 saylı test tapşırığı
## B variantı 52 saylı test tapşırığı
## C variantı 52 saylı test tapşırığı
## D variantı 54 saylı test tapşırığı

Hansı cümlələr mətnin ən azı iki abzasını genişləndirə bilər?

1. İnfrastrukturun necə işləyəcəyi ilə bağlı təfərrüatlar hələ məlum olmasa da, onun üzmə qabiliyyətinin təmin edilməsi kimi məsələlər detallı işlənib.
2. Layihələndirilən şəhərdə restoranlar, mağazalar, xəstəxanalar, məktəblər fəaliyyət göstərəcək.
3. Nüfuzlu təşkilatın körfəzlə bağlı həyəcan təbili çalması problemin ciddiliyindən xəbər verir.
4. Enerji istehsalından tutmuş su təminatına qədər hər şey şəhərdə olan mövcud resurslar hesabına əldə ediləcək.
5. Dəniz səviyyəsinin qalxması taxta özüllər üzərində yerləşən şəhərin onsuz da zəifləmiş struktur zədələnməsini artırmağa davam edir.

A) 1, 2, 4 B) 2, 3, 5 C) 1, 3, 5
D) 1, 3, 4 E) 2, 4, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.
***İzah:*** Cavab bəndlərindəki *İnfrastrukturun necə işləyəcəyi ilə bağlı təfərrüatlar hələ məlum olmasa da, onun üzmə qabiliyyətinin təmin edilməsi kimi məsələlər detallı işlənib*; *Layihələndirilən şəhərdə restoranlar, mağazalar, xəstəxanalar, məktəblər fəaliyyət göstərəcək; Enerji istehsalından tutmuş su təminatına qədər hər şey şəhərdə olan mövcud resurslar hesabına əldə ediləcək* fikirləri mətnin ən azı IV və V abzaslarını genişləndirə bilər. *Nüfuzlu təşkilatın körfəzlə bağlı həyəcan təbili çalması problemin ciddiliyindən xəbər verir* fikri mətnin yalnız I abzasını, *Dəniz səviyyəsinin qalxması taxta özüllər üzərində yerləşən şəhərin onsuz da zəifləmiş struktur zədələnməsini artırmağa davam edir* fikri yalnız II abzası genişləndirə bilər.
***Doğru cavab:*** 1, 2, 4

## A variantı 53 saylı test tapşırığı
## B variantı 53 saylı test tapşırığı
## C variantı 51 saylı test tapşırığı
## D variantı 52 saylı test tapşırığı

Mətnin tezislərinə aid edilə ***bilməz***:

1. Müxtəlif təbiət hadisələri yaşayış məntəqələrini təhlükə qarşısında qoya bilir.
2. Müxtəlif təbii fəlakət riski ilə üzləşən ölkələr tədbirlər görməkdə acizdir.
3. Subasmadan qorunmaq üçün müəyyən texnoloji tədbirlər görülür.
4. Planetin sahilyanı ərazilərinin itirilməsinə qarşı mübarizə aparılır.
5. Subasma ehtimalı olan ərazilərdən əhalinin köçürülməsi ilə bağlı müəyyən işlər görülür.

A) 2, 5 B) 2, 3, 4 C) 1, 2 D) 4, 5 E) 1, 3, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** *Müxtəlif təbiət hadisələri yaşayış məntəqələrini təhlükə qarşısında qoya bilir* müddəası tezisdir, mətndə quraqlıq, fırtına, daşqın, zəlzələ və vulkan püskürməsi kimi təbiət hadisələrinin adı çəkilmiş, subasmanın yaratdığı təhlükələr faktlarla əksini tapmışdır.
*Müxtəlif təbii fəlakət riski ilə üzləşən ölkələr tədbirlər görməkdə acizdir* müddəası yanlışdır, subasma ilə qarşı-qarşıya olan ölkələr artıq gerçəkləşdirilmiş və ya gerçəkləşdirilməsi nəzərdə tutulmuş üzən tikililər vasitəsilə problemin həllinə çalışırlar.
*Subasmadan qorunmaq üçün müəyyən texnoloji tədbirlər görülür* müddəası mətnin tezislərindəndir, üzən evlər, üzən şəhərlərin yaradılması, modelləşdirilmiş adaların layihələrinin hazırlanması faktdır.
*Planetin sahilyanı ərazilərinin itirilməsinə qarşı mübarizə aparılır* müddəası tezisdir, BMT-nin çağırışları, Sinqapur variantı, qədim Venesiya təcrübəsi, Kanada, Maldiv adaları, Yaponiya kimi ölkələrin gördükləri işlər əhəmiyyətli faktlardır.
*Subasma ehtimalı olan ərazilərdən əhalinin köçürülməsi ilə bağlı müəyyən işlər görülür* fikri mətnə aid tezis deyil, çünki mətndə əhalinin köçürülməsi faktı yoxdur.
***Doğru cavab:*** 2, 5

**A variantı 54 saylı test tapşırığı**
**B variantı 54 saylı test tapşırığı**
**C variantı 54 saylı test tapşırığı**
**D variantı 51 saylı test tapşırığı**

Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| ***Doğrudur*** | ***Yanlışdır*** | ***Ehtimaldır*** |
|---|---|---|
| 1. Maldiv adalarında əhalinin altıbucaqlı adalarda yaşaması<br>2. Banqkok şəhərinin ildən-ilə aşağı çökməsi | 3. Ontario şəhərində üzən evdə inzibati binaların da yerləşməsi<br>4. Sahil zolaqlarında yaşayış məntəqələrinin olması | 5. Subasmadan müdafiə olunmaq üçün təcrübələrin olması<br>6. "N-Ark" şirkətinin layihələndirdiyi şəhərin təbii fəlakətlərə qarşı tab gətirməsi |

A) 2, 3, 6 B) 1, 4, 5 C) 2, 3, 5
D) 1, 2, 4 E) 1, 3, 6

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

***İzah:*** Cədvəlin ***Doğrudur*** başlıqlı sütununda verilmiş *Maldiv adalarında əhalinin altıbucaqlı adalarda yaşaması* fikri layihə hələ gerçəkləşmədiyi üçün ehtimaldır. *Banqkok şəhərinin ildən-ilə aşağı çökməsi* fikri doğrudur, ildə 2 santimetr batır.
Cədvəlin ***Yanlışdır*** başlıqlı sütununda verilmiş *Ontario şəhərində üzən evdə inzibati binaların da yerləşməsi* fikri yanlışdır, çünki ev bir ailənin yaşaması üçün nəzərdə tutulub. *Sahil zolaqlarında yaşayış məntəqələrinin olması* fikri doğru olsa da, cədvəlin tələbinə uyğun deyil. Cədvəlin ***Ehtimaldır*** başlıqlı sütununda verilmiş *Subasmadan müdafiə olunmaq üçün təcrübələrin olması* fikri doğrudur, lakin cədvəlin tələbinə uyğun deyil. "N-Ark" şirkətinin layihələndirdiyi şəhərin təbii fəlakətlərə qarşı tab gətirməsi fikri ehtimaldır, çünki gerçəkləşməsi nəzərdə tutulan layihə şəklindədir.
***Doğru cavab:*** 2, 3, 6

**A variantı 55 saylı test tapşırığı**
**B variantı 51 saylı test tapşırığı**
**C variantı 53 saylı test tapşırığı**
**D variantı 53 saylı test tapşırığı**

Mətnin III abzasına əsasən cümləni tamamlaya bilər:
*Üzən evlər ev-qayıqlardan fərqli olaraq, ... .*
1. daha qədimdir
2. suda bir yerdən başqa yerə üzür
3. dəyişən iqlim şərtlərinə uyğunlaşdırılmışdır
4. texnoloji yenilikdir
5. sabit özül üzərində qərar tutur

A) 1, 2 B) 3, 4 C) 4, 5 D) 1, 3, 5 E) 2, 3, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

***İzah:*** Mətnin III abzasına görə *Üzən evlər ev-qayıqlardan fərqli olaraq, dəyişən iqlim şərtlərinə uyğunlaşdırılmışdır, texnoloji yenilikdir. Daha qədimdir fikri* cümləni tamamlaya bilməz, çünki yalnız ev-qayıqlar qədimdən bəri mövcuddur; *suda bir yerdən başqa yerə üzür* fikri tamamlaya bilməz, çünki hər ikisi suda üzür; *sabit özül üzərində qərar tutur* fikri tamamlaya bilməz, çünki hər ikisi suda üzən obyektdir və özülü yoxdur.
***Doğru cavab:*** 3, 4

**A variantı 56 saylı test tapşırığı**
**B variantı 56 saylı test tapşırığı**
**C variantı 56 saylı test tapşırığı**
**D variantı 56 saylı test tapşırığı**

Mətndə nöqtələrin yerinə uyğun fikir yazmaqla cümləni tamamlayın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***Ehtimal edilən doğru cavab variantları:***

- bir müddət sonra su altında qalmasına səbəb olacaq.
- məhvinə səbəb olacaq.
- yer üzündən silinməsinə səbəb olacaq.
- ciddi zədə alması ilə nəticələnəcək.
- dağılmasına gətirib çıxaracaq və s.
-

**A variantı 57 saylı test tapşırığı**
**B variantı 57 saylı test tapşırığı**
**C variantı 57 saylı test tapşırığı**
**D variantı 57 saylı test tapşırığı**

Üzərində rəqəm yazılmış sözlərin kontekstə əsasən mənasını müəyyən edib yazın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.1.1. Tanış olmadığı söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.
***Ehtimal edilən doğru cavab variantları:***
1. təhlükə, qorxu
2. şiddətli, böyük
3. həmişə, hər zaman, hər vaxt

**A variantı 58 saylı test tapşırığı**
**B variantı 58 saylı test tapşırığı**
**C variantı 58 saylı test tapşırığı**
**D variantı 58 saylı test tapşırığı**

Mətnə əsasən Eyler-Venn diaqramını doldurun.



***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***Ehtimal edilən doğru cavab variantları:***
*Ontario şəhərində üzən ev:*
- Göldə üzür.
- Bir ailə üçün nəzərdə tutulub.
- Lövbərlə qayalığa bərkidilir.
- 1000 kvadratmetrlik sahəyə malikdir.
- Polad çərçivəli sallar üzərindədir.
- İstifadədədir və s.

*Yaponiyada üzən şəhər:*
- 40000 insan yerləşə bilər.
- Sahilə bərkidiləcək.
- Layihədir.
- Körfəzdə (dənizdə) yerləşəcək.
- Sunamiyə də davam gətirə bilər.
- Yuvarlaq formadadır və s.

*Ortaq:*
- Su səviyyəsinin dəyişməsinə davam gətirmək üçün nəzərdə tutulub.
- Yaşayış məqsədi daşıyır.
- Texnoloji yenilikdir.
- Dəyişən iqlim şərtlərinə tab gətirmək üçün nəzərdə tutulmuşdur.

**A variantı 59 saylı test tapşırığı**
**B variantı 59 saylı test tapşırığı**
**C variantı 59 saylı test tapşırığı**
**D variantı 59 saylı test tapşırığı**

Əvvəlində işarə qoyulmuş sözlər əsasında cədvəli doldurun.

| | *İnformativ funksiya daşıyır (√)* | *Poetik funksiya daşıyır (√)* | *Sözün mətndəkindən fərqli (informativdirsə, poetik; poetikdirsə, informativ) funksiyada söz birləşməsi və ya cümlədə işlədilməsi* |
|---|---|---|---|
| ▲ | √ | | |
| ■ | √ | | |

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.1.2. Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını kontekstə uyğun dəqiqləşdirməklə şərh edir.
***Ehtimal edilən doğru cavab variantları:***
■ Şagirdin bünövrəsi yaxşı qoyulmuşdu.
Sevincinin bünövrəsi övladı idi.
Təhsilin bünövrəsi və s.
▲ Dostluq körpüsü.
Mədəniyyətlərarası körpü.
Bu əsər insanlar arasında mənəvi körpü oldu və s.

**A variantı 60 saylı test tapşırığı**
**B variantı 60 saylı test tapşırığı**
**C variantı 60 saylı test tapşırığı**
**D variantı 60 saylı test tapşırığı**

Mətnə əsasən cədvəli tamamlayın.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.
***Ehtimal edilən doğru cavab variantları:***

| *Problem* | *Problemin həllinə çalışan ölkələr* | *Problemin həlli yolunda atılan addımlar* |
|---|---|---|
| *Şəhərlərin su altında qalma təhlükəsi* | Sinqapur | Üzən tikililər vasitəsilə ərazisini artırmışdır. |
| | İtaliya | Taxta bünövrələr üzərində Venesiya qurulmuş, 400-dən çox körpü vasitəsilə şəhərin hissələri birləşdirilmişdir. |
| | Kanada | Üzən ev yaradılmışdır. |
| | Maldiv adaları | Modul strukturlardan ibarət şəhər layihələndirilmişdir. |
| | Yaponiya | “N-Ark” şirkəti 40 min nəfərin yaşaması üçün nəzərdə tutulmuş üzən şəhər layihəsini təqdim edib. |

## Riyaziyyat

**A variantı 61 saylı test tapşırığı**
**B variantı 62 saylı test tapşırığı**
**C variantı 73 saylı test tapşırığı**
**D variantı 65 saylı test tapşırığı**

$4-2i$ kompleks ədədinə qoşma olan ədədi tapın.
A) $4+4i$ B) $4-4i$ C) $2+4i$
D) $2-4i$ E) $4+2i$

***Mövzu:*** Kompleks ədədlər
***Sinif:*** 11
***Alt-standart:*** 1.2.1. Cəbri şəkildə verilmiş kompleks ədədlər üzərində hesab əməllərini yerinə yetirir.
***İzah:*** $4-2i$ kompleks ədədinin qoşması $4+2i$ -dir.
***Doğru cavab:*** $4+2i$

**A variantı 62 saylı test tapşırığı**
**B variantı 73 saylı test tapşırığı**
**C variantı 63 saylı test tapşırığı**
**D variantı 71 saylı test tapşırığı**

$\frac{2x^2+x}{2} > \frac{3x}{5} + \frac{9}{10}$ bərabərsizliyini həll edin.

A) $(-\infty;-9)\cup(0{,}1;+\infty)$ B) $(-9;0{,}1)$
C) $(-\infty;-0{,}9)\cup(1;+\infty)$ D) $(-0{,}9;+\infty)$
E) $(-\infty;1)$

***Mövzu:*** Bərabərsizliklər
***Sinif:*** 9
***Alt-standart:*** 2.2.3. Kvadrat bərabərsizliyi həll edir
***İzah:*** Bərabərsizliyin hər bir həddini 10-a vurmaqla

$5(2x^2+x) > 6x+9$ alarıq.

$10x^2 - x - 9 > 0$

$(10x+9)(x-1) > 0$

Sonuncu bərabərsizliyi intervallar üsulu ilə həll etməklə bərabərsizliyin həllər çoxluğunun $x\in(-\infty;-0{,}9)\cup(1;+\infty)$ olduğunu tapırıq.

***Doğru cavab:*** $(-\infty;-0{,}9)\cup(1;+\infty)$

**A variantı 63 saylı test tapşırığı**
**B variantı 65 saylı test tapşırığı**
**C variantı 67 saylı test tapşırığı**
**D variantı 61 saylı test tapşırığı**

Müstəvi üzərində olmayan *M* nöqtəsindən müstəviyə *MK* və *ME* mailləri çəkilmişdir. *MN*⊥*NK*, *MN*⊥*NE*, ∠*MKN*=30°, *MK*=6 və *NE*=2 olarsa, *ME*-ni tapın.




A) 5 B) 4 C) $\sqrt{15}$ D) $\sqrt{13}$ E) 6

***Mövzu:*** Fəzada düz xətlər və müstəvilər
***Sinif:*** 10
***Alt-standart:*** 3.1.2. Fəzada düz xətlərin və müstəvilərin qarşılıqlı vəziyyətinə aid məsələlər həll edir.
***İzah:*** *MKN* üçbucağında 30°-li bucağın xassəsinə görə $\mathrm{MN}=3$ olduğunu alırıq. *MNE* üçbucağına Pifaqor teoremini tətbiq etməklə

$\mathrm{ME}=\sqrt{\mathrm{MN}^2+\mathrm{NE}^2}=\sqrt{3^2+2^2}=\sqrt{13}$ tapırıq.

***Doğru cavab:*** $\sqrt{13}$

**A variantı 64 saylı test tapşırığı**
**B variantı 70 saylı test tapşırığı**
**C variantı 69 saylı test tapşırığı**
**D variantı 64 saylı test tapşırığı**

Radiusu 3 sm olan kürənin həcmini hesablayın.

A) $36\pi$ sm$^3$ B) $54\pi$ sm$^3$ C) $45\pi$ sm$^3$
D) $12\pi$ sm$^3$ E) $20\pi$ sm$^3$

***Mövzu:*** Fırlanma cisimləri
***Sinif:*** 11
***Alt-standart:*** 3.2.5. Kürənin səthinin sahəsinin və həcminin tapılmasına aid məsələlər həll edir.
***İzah:*** $V=\frac{4}{3}\pi R^3=\frac{4}{3}\pi\cdot 3^3=36\pi$ (sm$^3$).
***Doğru cavab:*** $36\pi$ sm$^3$

**A variantı 65 saylı test tapşırığı**
**B variantı 66 saylı test tapşırığı**
**C variantı 71 saylı test tapşırığı**
**D variantı 70 saylı test tapşırığı**

$a_n = 3n-1$ düsturu ilə verilmiş ardıcıllığın beşinci həddini tapın.

A) 5 B) 9 C) 4 D) 12 E) 14

***Mövzu:*** Ardıcıllıq
***Sinif:*** 9
***Alt-standart:*** 2.1.3. Ardıcıllıqların, ədədi və həndəsi silsilələrin xassələrini məsələ həllinə tətbiq edir.
***İzah:*** $a_5 = 3\cdot 5-1=14$
***Doğru cavab:*** 14

**A variantı 66 saylı test tapşırığı**
**B variantı 68 saylı test tapşırığı**
**C variantı 65 saylı test tapşırığı**
**D variantı 69 saylı test tapşırığı**

Diaqramda bir sinfin dərsdə iştirak edən və etməyən şagirdlərinin sayı haqqında məlumat verilmişdir. Sinif siyahısından təsadüfən seçilmiş iki şagirddən birinin dərsdə iştirak edən oğlan, digərinin isə dərsdə iştirak etməyən qız şagird olması hadisəsinin ehtimalını tapın.




A) $\frac{1}{10}$ B) $\frac{3}{29}$ C) $\frac{1}{15}$ D) $\frac{2}{29}$ E) $\frac{7}{30}$

***Mövzu:*** Ehtimal nəzəriyyəsi
***Sinif:*** 9
***Alt-standart:*** 5.2.3. Birləşmələrin köməyi ilə ehtimala aid sadə məsələləri həll edir

***İzah:*** Diaqramdan görünür ki, sinifdə cəmi 30 şagird var. Bu şagirdlərdən dərsdə iştirak edən oğlanların sayı 15, dərsdə iştirak etməyən qızların sayı isə 2-dir. Sinif siyahısından təsadüfən seçilmiş iki şagirddən birinin dərsdə iştirak edən oğlan, digərinin isə dərsdə iştirak etməyən qız şagird olması hadisəsinin ehtimalı

$$P=\frac{{}_{15}C_1\cdot{}_2C_1}{{}_{30}C_2}=\frac{15\cdot2}{\frac{30\cdot29}{2}}=\frac{2}{29}.$$

***Doğru cavab:*** $\frac{2}{29}$

**A variantı 67 saylı test tapşırığı**
**B variantı 61 saylı test tapşırığı**
**C variantı 62 saylı test tapşırığı**
**D variantı 66 saylı test tapşırığı**

Mərkəzi $O$ nöqtəsi olan çevrənin $AB$ vətəri $AC$ diametrinin yarısına bərabərdir. $\angle BAO$ -nu tapın.




A) 50° B) 60° C) 45° D) 35° E) 30°

***Mövzu:*** Çevrə
***Sinif:*** 9
***Alt-standart:*** 3.1.4. Çevrə və dairənin elementlərini bilir, onların xassələrini tətbiq edir.
***İzah:*** $O$ nöqtəsi ilə $B$ nöqtəsini birləşdirməklə bərabərtərəfli $AOB$ üçbucağı alarıq, beləliklə $\angle BAO=60°$.
***Doğru cavab:*** 60°

**A variantı 68 saylı test tapşırığı**
**B variantı 67 saylı test tapşırığı**
**C variantı 66 saylı test tapşırığı**
**D variantı 62 saylı test tapşırığı**

$\sqrt{19,4}$ ədədi hansı iki ardıcıl tam ədəd arasında yerləşir?

A) 8 və 9 B) 3 və 4 C) 4 və 5
D) 9 və 10 E) 5 və 6

***Mövzu:*** Kvadrat köklər
***Sinif:*** 8
***Alt-standart:*** 1.1.3. İrrasional ədədə uyğun nöqtəni koordinat düz xətti üzərində təxmini göstərir.
***İzah:*** $\sqrt{16}<\sqrt{19,4}<\sqrt{25} \Rightarrow 4<\sqrt{19,4}<5$
***Doğru cavab:*** 4 və 5

**A variantı 69 saylı test tapşırığı**
**B variantı 71 saylı test tapşırığı**
**C variantı 68 saylı test tapşırığı**
**D variantı 72 saylı test tapşırığı**

İki ədədin cəmi 137, fərqi isə 19 olarsa, bu ədədlərdən böyüyünü tapın.

A) 76 B) 78 C) 68 D) 79 E) 67

***Mövzu:*** Tənliklər sistemi
***Sinif:*** 7
***Alt-standart:*** 2.2.2. Birdəyişənli xətti tənliyi, modul işarəsi daxilində dəyişəni olan tənliyi və ikidəyişənli iki xətti tənliklər sistemini həll edir.

***İzah:*** Şərtə görə $\begin{cases}a+b=137,\\ a-b=19\end{cases}$ yaza bilərik.

Tənliklər sisteminin hədlərini tərəf-tərəfə toplamaqla $2a=156 \Rightarrow a=78$ alırıq.
***Doğru cavab:*** 78

**A variantı 70 saylı test tapşırığı**
**B variantı 63 saylı test tapşırığı**
**C variantı 64 saylı test tapşırığı**
**D variantı 73 saylı test tapşırığı**

$4\sin^2 x-4\sin x+1=0$ tənliyini həll edin.

A) $\frac{\pi}{3}+\pi k;\, k\in Z$ B) $-\frac{\pi}{3}+\pi k;\, k\in Z$

C) $(-1)^k\frac{\pi}{4}+\pi k;\, k\in Z$ D) $(-1)^k\frac{\pi}{6}+\pi k;\, k\in Z$

E) $(-1)^{k+1}\frac{\pi}{6}+\pi k;\, k\in Z$

***Mövzu:*** Triqonometrik tənliklər
***Sinif:*** 10
***Alt-standart:*** 2.3.1. Triqonometrik tənlik və bərabərsizlikləri həll edir.
***İzah:***

$$\left(2\sin x-1\right)^2=0 \Rightarrow \sin x=\frac{1}{2} \Rightarrow x=(-1)^k\frac{\pi}{6}+\pi k;\, k\in Z$$

***Doğru cavab:*** $(-1)^k\frac{\pi}{6}+\pi k;\, k\in Z$

**A variantı 71 saylı test tapşırığı**
**B variantı 72 saylı test tapşırığı**
**C variantı 70 saylı test tapşırığı**
**D variantı 63 saylı test tapşırığı**

$\frac{7}{9}:3,1=x:9,3$ tənasübündən $x$-i tapın.

A) $\frac{1}{3}$ B) $\frac{7}{9}$ C) $\frac{7}{3}$ D) $\frac{2}{9}$ E) $\frac{4}{3}$

***Mövzu:*** Faiz. Nisbət. Tənasüb
***Sinif:*** 6
***Alt-standart:*** 1.2.5. Nisbət, tənasüb, düz mütənasib, tərs mütənasib kəmiyyətlərə və faizə aid sadə məsələləri həll edir.
***İzah:*** Məlumdur ki, tənasübün orta hədlərinin hasili onun kənar hədlərinin hasilinə bərabərdir, yəni

$$x\cdot3,1=9,3\cdot\frac{7}{9} \Rightarrow x=\frac{7}{3} \text{ olar.}$$

***Doğru cavab:*** $\frac{7}{3}$

**A variantı 72 saylı test tapşırığı**
**B variantı 69 saylı test tapşırığı**
**C variantı 72 saylı test tapşırığı**
**D variantı 68 saylı test tapşırığı**

$\vec{a}\langle 4;-3\rangle$ və $\vec{b}\langle -5;2\rangle$ vektorlarının skalyar hasilini tapın.

A) –14 B) 26 C) 28 D) 14 E) –26

***Mövzu:*** Vektorlar
***Sinif:*** 11
***Alt-standart:*** 3.1.1. Fəzada Dekart koordinat sistemi anlayışını, vektor anlayışını bilir, koordinatları ilə verilmiş iki vektorun skalyar hasilini tapır.
***İzah:*** $\vec{a}\cdot\vec{b}=4\cdot(-5)+(-3)\cdot 2=-26$.
***Doğru cavab:*** –26

**A variantı 73 saylı test tapşırığı**
**B variantı 64 saylı test tapşırığı**
**C variantı 61 saylı test tapşırığı**
**D variantı 67 saylı test tapşırığı**

$\left(5-6y^3\right)\left(6y^3+5\right)$ ifadəsini sadələşdirin.

A) $25-36y^6$ B) $12y^6-10$ C) $25-12y^3-36y^6$

D) $36y^6-25$ E) $25+12y^3-36y^6$

***Mövzu:*** Tam cəbri ifadələr
***Sinif:*** 7
***Alt-standart:*** 2.2.1 Çoxhədlilər üzərində toplama, çıxma və vurma əməllərini yerinə yetirir.
***İzah:*** $\left(5-6y^3\right)\left(6y^3+5\right)=\left(5-6y^3\right)\left(5+6y^3\right)=25-36y^6$
***Doğru cavab:*** $25-36y^6$

**A variantı 74 saylı test tapşırığı**
**B variantı 77 saylı test tapşırığı**
**C variantı 78 saylı test tapşırığı**
**D variantı 76 saylı test tapşırığı**

$10\sin 30°+\sin 231°+\cos 39°-\tan 45°$ ifadəsinin qiymətini hesablayın.

***Mövzu:*** Triqonometrik funksiyalar
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.1. Bucağın radian ölçüsü anlayışını və istənilən bucağın triqonometrik funksiyalarının tərifini bilir, məsələlər həllində ondlardan istifadə edir.
***İzah:***
$$10\sin 30°+\sin 231°+\cos 39°-\tan 45°=$$
$$=10\cdot\frac{1}{2}+\sin(270°-39°)+\cos 39°-1=$$
$$=5-\cos 39°+\cos 39°-1=4$$
***Doğru cavab:*** 4

**A variantı 75 saylı test tapşırığı**
**B variantı 74 saylı test tapşırığı**
**C variantı 74 saylı test tapşırığı**
**D variantı 74 saylı test tapşırığı**

$\lg\sqrt[5]{10^2}+\lg\sqrt[3]{10^2}+\lg\sqrt[5]{10^3}+\lg\sqrt[3]{10}$ ifadəsinin qiymətini tapın.

***Mövzu:*** Loqarifmik funksiyalar
***Sinif:*** 10
***Alt-standart:*** 2.2.7. Ədədin loqarifminin tərifini, loqarifmləmə qaydalarını bilir və onları tətbiq edir.

***İzah:***
$$\lg\sqrt[5]{10^2}+\lg\sqrt[3]{10^2}+\lg\sqrt[5]{10^3}+\lg\sqrt[3]{10}=$$
$$=\left(\lg\sqrt[5]{10^2}+\lg\sqrt[5]{10^3}\right)+\left(\lg\sqrt[3]{10^2}+\lg\sqrt[3]{10}\right)=$$
$$=\lg\sqrt[5]{10^5}+\lg\sqrt[3]{10^3}=1+1=2.$$
***Doğru cavab:*** 2

**A variantı 76 saylı test tapşırığı**
**B variantı 78 saylı test tapşırığı**
**C variantı 77 saylı test tapşırığı**
**D variantı 78 saylı test tapşırığı**

$\left(\frac{1}{6}\right)^x=\left(\frac{2}{3}\right)^{x+1}$ tənliyindən $4^x$-in qiymətini tapın.

***Mövzu:*** Üstlü tənliklər
***Sinif:*** 10
***Alt-standart:*** 2.3.2. Üstlü və loqarifmik tənlikləri, bərabərsizlikləri həll edir.
***İzah:***
$$\left(\frac{1}{6}\right)^x=\left(\frac{2}{3}\right)^{x+1}$$
$$\frac{1}{2^x\cdot 3^x}=\frac{2^x\cdot 2}{3^x\cdot 3}$$
$$2^x\cdot 2^x=\frac{3}{2}$$
$$4^x=\frac{3}{2}=1{,}5$$
***Doğru cavab:*** 1,5

**A variantı 77 saylı test tapşırığı**
**B variantı 76 saylı test tapşırığı**
**C variantı 75 saylı test tapşırığı**
**D variantı 75 saylı test tapşırığı**

Yan səthinin sahəsi 72, hündürlüyü 6 olan düz prizmanın oturacağının perimetrini tapın.

***Mövzu:*** Çoxüzlülər
***Sinif:*** 10
***Alt-standart:*** 3.2.3. Prizmanın yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələlər həll edir.

***İzah:*** Məlumdur ki, düz prizma üçün

$S_{yan} = P_{ot} \cdot H$ düsturu doğrudur və buradan da

$P_{ot} = \frac{S_{yan}}{H} = \frac{72}{6} = 12$ olduğunu alarıq.

***Doğru cavab:*** 12

**A variantı 78 saylı test tapşırığı**
**B variantı 75 saylı test tapşırığı**
**C variantı 76 saylı test tapşırığı**
**D variantı 77 saylı test tapşırığı**

$\frac{49^2+46^2-26^2-29^2}{600}$ ifadəsinin qiymətini hesablayın.

***Mövzu:*** Müxtəsər vurma düsturları
***Sinif:*** 7
***Alt-standart:*** 1.2.4. Ədədi ifadələrin qiymətinin tapılmasına müxtəsər vurma düsturlarını tətbiq edir.

***İzah:***

$$\frac{49^2+46^2-26^2-29^2}{600} = \frac{(49^2-29^2)+(46^2-26^2)}{600} =$$
$$= \frac{20\cdot 78+20\cdot 72}{600} = \frac{20(78+72)}{600} = 5.$$

***Doğru cavab:*** 5

**A variantı 79 saylı test tapşırığı**
**B variantı 79 saylı test tapşırığı**
**C variantı 79 saylı test tapşırığı**
**D variantı 79 saylı test tapşırığı**

Şagirdin riyaziyyat fənn olimpiadasında cavablandırdığı 4 sualdan ilk üçünə görə topladığı balların ədədi ortası 8, dördünə görə topladığı balların ədədi ortası isə 7 olarsa, o dördüncü suala görə neçə bal almışdır?
***Mövzu:*** Həqiqi ədədlər
***Sinif:*** 6
***Alt-standart:*** 5.1.3. Toplanmış ədədi məlumatların modasını, medianını və ədədi ortasını tapır.
***İzah:*** Şagirdin topladığı ballar sualların nömrələrinə uyğun olaraq $x_1, x_2, x_3, x_4$ olsun. Şərtə görə

$\frac{x_1+x_2+x_3}{3} = 8 \Rightarrow x_1+x_2+x_3 = 24$. Digər tərəfdən

$\frac{x_1+x_2+x_3+x_4}{4} = 7 \Rightarrow \frac{24+x_4}{4} = 7 \Rightarrow x_4 = 4$ olar.

***Doğru cavab:*** 4

**A variantı 80 saylı test tapşırığı**
**B variantı 80 saylı test tapşırığı**
**C variantı 80 saylı test tapşırığı**
**D variantı 80 saylı test tapşırığı**

Düzbucaqlı üçbucağın bir katetinin hipotenuza nisbəti 4:5, perimetri 48 sm olarsa, hipotenuzunun uzunluğunu tapın.

***Mövzu:*** Üçbucaqlar
***Sinif:*** 8
***Alt-standart:*** 3.1.3. Pifaqor teoremini tətbiq edir, iti bucağın triqonometrik funksiyalarının təriflərini bilir və bəzi bucaqların triqonometrik funksiyalarının qiymətini tapır
***İzah:*** Şərtə görə düzbucaqlı üçbucağın bir kateti $4k$, hipotenuzu isə $5k$-dır. Pifaqor teoremini tətbiq edərək ikinci katetin $3k$ olduğunu tapırıq. Beləliklə,

$P = 3k+4k+5k = 12k = 48 \Rightarrow 5k = 20.$

***Doğru cavab:*** 20

**A variantı 81 saylı test tapşırığı**
**B variantı 81 saylı test tapşırığı**
**C variantı 81 saylı test tapşırığı**
**D variantı 81 saylı test tapşırığı**

Kvadrat formasındakı iki bağça ətrafına perimetrləri boyunca çəkilmiş borular vasitəsilə sulanır. Bağçalarla su anbarı arasındakı boruların hər birinin uzunluğu 4 m-dir. Birinci bağçanın tərəfinin uzunluğu ikinci bağçanın tərəfindən 2 m çox, birinci bağçanın sahəsi ikincinin sahəsinin 2 mislindən 8 m$^2$ azdır. Sulama üçün ən az nə qədər borudan istifadə olunur?




***Mövzu:*** Fiqurların sahəsi
***Sinif:*** 9
***Alt-standart:*** 3.1.4. Üçbucağın, paraleloqramın, rombun, trapesiyanın sahəsini hesablayır.
***İzah:*** II bağçanın tərəfi $x$, I bağçanın tərəfi isə $x$+2 olsun. Şərtə görə birinci bağçanın sahəsi ikincinin sahəsinin 2 mislindən 8 m$^2$ azdır, yəni

$(x+2)^2 = 2x^2 - 8 \Rightarrow x^2 - 4x - 12 = 0 \Rightarrow$

$\Rightarrow x_1 = -2, \quad x_2 = 6.$

$x$ bağçanın tərəfi olduğundan $x$>0 şərti ödənilməlidir, yəni $x = 6$ olmalıdır. Bağçaları sulamaq üçün ətrafına perimetrləri boyunca çəkilmiş boruların uzunluğu $4x+4(x+2)$, bağçalarla su anbarı arxasındakı boruların hər birinin uzunluğu 4 m olduğundan suvarma üçün istifadə olunan boruların ümumi uzunluğu $4x+4(x+2)+4+4=64$(m) olar.
***Doğru cavab:*** 64

**A variantı 82 saylı test tapşırığı**
**B variantı 82 saylı test tapşırığı**
**C variantı 82 saylı test tapşırığı**
**D variantı 82 saylı test tapşırığı**

Bir məktəbin bütün müəllim kollektivinin $\frac{1}{4}$ -i Şuşaya, $\frac{4}{5}$-ü Xankəndiyə, 2-si isə hər iki şəhərə səfər etdi. Bu kollektivdə neçə müəllim var?

***Mövzu:*** Çoxluqlar

***Sinif:*** 7
***Alt-standart:*** 1.1.4. Çoxluqların birləşməsi və kəsişməsi xassələrini məsələlər həllinə tətbiq edir.
2.1.1. Həyati situasiyaya uyğun xətti və ya ikidəyişənli iki xətti tənliklər sistemini tərtib edir.
***İzah:*** Məktəbin bütün müəllim kollektivinin sayı $x$ olsun. Onda yalnız Şuşaya səfər etmiş müəllimlərin sayı $\left(\frac{1}{4}x-2\right)$, yalnız Xankəndiyə səfər etmiş müəllimlərin sayı $\left(\frac{4}{5}x-2\right)$ olar. Onda

$$\left(\frac{1}{4}x-2\right)+\left(\frac{4}{5}x-2\right)+2=x \Rightarrow \frac{1}{20}x=2 \Rightarrow x=40.$$

***Doğru cavab:*** 40

## A variantı 83 saylı test tapşırığı
## B variantı 83 saylı test tapşırığı
## C variantı 83 saylı test tapşırığı
## D variantı 83 saylı test tapşırığı

*ABCD* trapesiyasında *AB* = 6 sm, *CD* = 8 sm, *CE* parçası bu trapesiyanı romb və düzbucaqlı üçbucağa ayırarsa, $P_{ABCD}$-ni tapın.




***Mövzu:*** Çoxbucaqlılar
***Sinif:*** 8
***Alt-standart:*** 3.1.5. Dördbucaqlının təsnifatını (paraleloqram, düzbucaqlı, romb, kvadrat, trapesiya) və xassələrini bilir.
***İzah:*** *ABCD* trapesiyasını *CE* parçası trapesiyanı romb və düzbucaqlı üçbucağa ayırdığından $AB=BC=CE=AE=6$ (sm). Düzbucaqlı *ECD* üçbucağından Pifaqor teoreminə görə

$$ED=\sqrt{EC^2+CD^2}=\sqrt{6^2+8^2}=10\,(\text{sm}) \text{ olar.}$$

Beləliklə, $P_{ABCD}=36\ sm$.
***Doğru cavab:*** 36 sm

## A variantı 84 saylı test tapşırığı
## B variantı 84 saylı test tapşırığı
## C variantı 84 saylı test tapşırığı
## D variantı 84 saylı test tapşırığı

Turistlər gəzinti zamanı motorlu qayıqla iki məntəqə arasındakı məsafəni çayın axını istiqamətində gedib, axının əksi istiqamətdə qayıtmağa ümumilikdə 4 saat vaxt sərf etdilər. Qayığın öz sürəti $6\,\frac{\text{km}}{\text{saat}}$, çayın axın sürəti isə $3\,\frac{\text{km}}{\text{saat}}$ olarsa, bu məntəqələr arasındakı məsafəni tapın.

***Mövzu:*** Birməchullu tənliklər
***Sinif:*** 7
***Alt-standart:*** 2.1.1. Həyati situasiyaya uyğun xətti və ya ikidəyişənli iki xətti tənliklər sistemini tərtib edir.
***İzah:*** Verilənləri aşağıdakı cədvəl formasında yazaq:

| İstiqamət | Sürət | Yol | Zaman |
|---|---|---|---|
| Çay axını ilə | $9\,\frac{\text{km}}{\text{saat}}$ | S km | $\frac{S}{9}$ saat |
